RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 228 (8821) CÜMƏ, 22 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Zəngilan Qafqazın logistika-nəqliyyat mərkəzinə, Azərbaycanın abad və müasir bölgəsinə çevriləcək

## Rayonun Ağalı kəndində həyata keçirilən “ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanışlıq



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun Ağalı kəndində həyata keçirilən “ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanış oldular. İlk “ağıllı kənd” layihəsinin təməli 2021-ci ilin aprelində dövlət başçısı tərəfindən qoyulub.

*Ardı 2-ci səh.*

## Şuşanın «Fərhad»ları

◆ Zəfərin izi ilə

### Qədim Kirs dağı çapılaraq Zəfər qalasına yeni su kəmərləri çəkilir



“Zəfər yolu”nda, dumanlı dağların arası ilə Vətənin bənzərsiz, ecazkar gözəlliyini seyr edə-edə dolanbac yollarla yüksəkliyə - Şuşaya qalxırıq...

Hərdən avtomobildən düşüb yaxın ətraflarda görülən işlərə diqqət edirik, foto çəkirik...

“Zəfər yolu”nun hər iki tərəfi ilə drenajlar çəkilir. Yağışlı, qarlı havalarda dağlardan gələn palçıqlı suyun asfalta yayılmaması üçün əvvəlcədən müvafiq işlər görülür.

Demək, Şuşa yeni təfəkkürlə, müasir yanaşma ilə yenidən qurulur...

Şuşa yüksəkliyini qalxdıqca ətrafda tikinti-quruculuq işləri ilə məşğul olan şirkətlərə məxsus çoxsaylı düşərgələrin salındığını müşahidə edirik.

Bir sözlə, Şuşadakı tikinti-quruculuq işlərinin hansı sürətlə getdiyini qalaya çatmamış görülən işlərdən aydın təsəvvür etmək mümkündür.

*Ardı 9-cu səh.*

## “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 1 fevral tarixli 260-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddələr 282, 293; 2001, № 12, maddə 731; 2003, № 10, maddə 539; 2004, № 7, maddə 507; 2007, № 5, maddə 401, № 6, maddə 561; 2008, № 7, maddə 602; 2016, № 11, maddə 1764; 2019, № 5, maddə 797; 2020, № 7, maddə 826; 2021, № 6 (I kitab), maddə 536; Azərbaycan Respublikasının 2021-ci il 11 iyun tarixli 345-VIQD nömrəli və 22 iyun tarixli 350-VIQD nömrəli qanunları) 3-cü maddəsinin ikinci hissəsinin səkkizinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

“sosial iş yerlərinin və işsiz şəxslərin özünüməşğulluğunun, habelə peşə hazırlığının təşkili zamanı onlara üstünlük verilir.”

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

## Şəhid ailələrinə və qazilərə diqqət daim gündəmdədir

Ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə yüksək səviyyədə diqqət ayrılır. Dövlət mütəmadi olaraq onların bütün ehtiyaclarının ödənilməsi üçün lazımi tədbirlər görür. Şəhid ailələrinə və müharibə əlillərinə mənzillər verilir, qazilər minik avtomobili, əlil arabası və protezlərlə təmin olunurlar. Şəhid ailələrinin və müharibə əlillərinin məşğulluğu da diqqət mərkəzindədir.

Bu kateqoriyadan olan insanlar ölkəmizin hansı guşəsində yaşamasına baxmayaraq, eyni qaydada dövlət təminatından istifadə edə bilirlər. Postmüharibə dövründə şəhid ailələrinin üzvləri, qazilər, erməni terrorundan zərər çəkənlərdən ibarət 31 min insan çevik və genişmiqyaslı sosial paketlə əhatə olunub, onlara 39 minədək müxtəlif növ xidmət göstərilib.

Dövlətin bu istiqamətdə gördüyü işlər mütəmadi xarakter daşımaqla yanaşı, onun əhatə dairəsi də getdikcə genişlənir. Belə ki, son 3 ildə şəhid ailələrinin və müharibə əlillərinin mənzil və fərdi evlə təmin edilməsi haqqında proqram üzrə görülən işlərin həcmi 5 dəfə artırılıb. Məqsəd cari ildə bu kateqoriyadan olan 3 min nəfəri mənzil və fərdi evlə təmin etməkdir. Bu proqramın icrası sayəsində cari ildə artıq 1700 nəfər mənzillə təmin olunub. İndiyədək bu kateqoriyadan olan 11 minə yaxın vətəndaşın mənzil və fərdi evə tələbatı ödənilib. Bununla yanaşı, Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixdə imzaladığı sərəncamla 2021-2025-ci illərdə daha 11 min bu kateqoriyadan olan insanın mənzil və fərdi evlə təmin edilməsi nəzərdə tutulub.

Bu günlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Samux rayonundakı şəhid ailələrinə və müharibə əlillərinə yeni mənzillər təqdim edilib. 9 binadan ibarət olan yaşayış kompleksi 200 mənzillidir. Burada yaşayacaq insanların rahatlığı, övladlarının yaxşı təhsil alması üçün 144 şagirdlik məktəb və 50 yerlik uşaq bağçası, klub, icma mərkəzi, 2 idman meydançası tikilib. Bütün bunlar həssas kateqoriyadan olan insanların rahatlığının təmin edilməsi üçündür.

Ölkəmizdə aparılan sosial siyasət öz əhatəliyi və humanistliyi ilə də seçilir. Belə ki, nazirlik tərəfindən Abşeron rayonundakı, Bakının Ramana və Xocahəsən qəsəbələrindəki yeni yaşayış komplekslərində 50 mənzil şəhid ailələrinə və müharibə əlillərinə, həmçinin gözdən əlilliyi olan şəxslərə, dövlət uşaq müəssisələrinin məzunlarına təqdim olunub.

*Ardı 6-cı səh.*



## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Zəngilan səfərindən görüntü paylaşıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Zəngilan səfərindən görüntü paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Doğma Vətən”.

# Zəngilan Qafqazın logistika-nəqliyyat mərkəzinə,

## Rayonun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq




*Əvvəli 1-ci səh.*

Kənd təsərrüfatı naziri İnam Kərimov məlumat verib ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaq. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşıb. Fəvvarədə quraşdırılacaq memarlıq abidəsi hazırlıq mərhələsindədir. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait olacaq.

Onu da qeyd edək ki, burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bundan əlavə, "ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. "Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada "ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.












## Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "AzVirt" MMC-nin baş direktoru Kamil Əliyev dövlət başçısına və birinci xanıma hava limanında görülən işlər barədə məlumat verib.

Bildirilib ki, uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işlərinə bu ilin may ayında başlanılıb. Zəngilan hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq.

Qeyd edək ki, rayonun coğrafi yerləşməsi və burada olan imkanlar Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün əlverişli şərait yaradır. Bundan əlavə, bu hava limanı Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafında böyük rol oynayacaq. Tikinti işlərinin 2022-ci ildə tamamlanması planlaşdırılır.



# Azərbaycanın abad və müasir bölgəsinə çevriləcək

## Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonundakı hərbi hissə kompleksində şəxsi heyət üçün bütün zəruri şərait yaradılıb







Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleks barədə məlumat verib.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Dövlət Sərhəd Xidmətinin Azərbaycan Respublikasının İran və Ermənistanla dövlət sərhədlərinin Zəngilan rayonu ərazisindən keçən hissələrinin mühafizəsini həyata keçirən yeni hərbi hissə kompleksi 15 hektar ərazini əhatə edir. Buraya qərargah binası və əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana və digər tikililər daxildir. Kompleksdə hərbi hissənin təyinatına uyğun xidməti-döyüş fəaliyyətinin təşkilinə, hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsinə, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılıb.

Dövlət başçısına hərbi hissənin xidməti istifadəsində olan zirehli döyüş maşınları, atıcı silahlar, qumbaraatanlar, iriçaplı pulemyotlar, zenit qurğuları və digər texniki vasitələr təqdim olunub. 44 günlük Vətən müharibəsi zamanı Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də torpaqlarımızın işğaldan azad olunmasında, dövlət sərhədinin bərpası kimi çox mühüm və müqəddəs bir missiyanın uğurla həyata keçirilməsində böyük şücaət və qəhrəmanlıq göstərib. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr vurub və işğalçıları torpaqlarımızdan qovub.













## Prezident İlham Əliyev Zəngilan rayonunda rəqəmsal yarımstansiyanın təməlini qoyub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda rəqəmsal yarımstansiyanın təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına və birinci xanıma Zəngilanda tikiləcək rəqəmsal yarımstansiya və rayonun elektrik təchizatı sxemi barədə məlumat verib. Bildirilib ki, 35/10 kV-luq 240 kilometrlik və 0.4 kV-luq 1050 kilometrlik elektrik verilişi xətti tamamilə yenidən qurulacaq. Ənənəvi təchizat sxemindən fərqli olaraq, yeni struktur şəbəkə iqtisadi baxımdan daha səmərəlidir. Yeni qurulacaq şəbəkədə "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin infrastrukturu üçün bütün imkanlar mövcud olacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamında qarşıya qoyulan vəzifələrin icrası məqsədilə "Azərişıq" ASC tərəfindən Paylayıcı Şəbəkələrin Yaşıl Enerji Zonası tələbləri üzərində qurulmasına start verilib, "ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan rəqəmsal yarımstansiya layihəsi işlənib hazırlanıb. Bu cür yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emal edir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir. Nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsi olan bu yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanması təmin edilir, bütün ölçülər yüksək dəqiqliklə aparılır. Avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Rəqəmsal yarımstansiyalarda iş alınan və ötürülən elektrik enerjisinin miqdarına görə multifunksional rejimdə qurulur, cihaz və avadanlıqlar bir-birilə koordinasiya vəziyyətində işləyir, əməliyyatlar paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılır, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti təmin edilir. Ən əsası, "yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alır.

Diqqətə çatdırılıb ki, Kəlbəcərdə hərbi hissələri elektrik enerjisi ilə təchiz etmək üçün 132 kilometrlik yeni xətt çəkiləcək, 42 kilometrlik xətt isə bərpa olunacaq. Hazırda bu istiqamətdə işlər davam edir.

Prezident İlham Əliyev rəqəmsal yarımstansiyanın təməlini qoyub.

## "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyası istifadəyə verilib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə məlumat verib.

Bildirilib ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi Zəngilan rayonunun elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən genişmiqyaslı işlər həyata keçirilib. Elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub, 25 MVA gücündə 2 transformator quraşdırılıb. Gələcəkdə şəbəkənin genişləndirilməsi nəzərə alınaraq lazımi infrastruktur yaradılıb. Burada mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub ki, bu da yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunmasına və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsinə imkan verir.

Qeyd edək ki, işğala qədər 40 min nəfərdən çox əhalisi olan Zəngilan rayonunun ümumi enerji tələbatı orta hesabla 7 MVt olub. Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, "ağıllı şəhər", "ağıllı kənd" də daxil olmaqla qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan artıq olacağı gözlənilir. Məhz bu səbəbdən də Zəngilan rayonunun və ümumilikdə Şərqi Zəngəzur iqtisadi rayonunun gələcək inkişaf istiqamətləri nəzərə alınaraq artacaq güc tələbatlarının qarşılanması məqsədilə yeni çəkilən 110 kV-luq ikidövrəli elektrik verilişi xəttinin gücötürmə qabiliyyəti 150-160 MVt-dır. "Zəngilan" yarımstansiyası, ilk növbədə, Zəngilan rayonunda yerləşən hərbi hissələri, sərhəd xidməti obyektlərini, bir sıra infrastruktur layihələri həyata keçirən müxtəlif dövlət strukturlarının, yol-tikinti şirkətlərinin obyektlərini elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev "Zəngilan" yarımstansiyasını işə salıb.

# Zəngilan Qafqazın logistika-nəqliyyat mərkəzinə,

## Zəngilanın yeni inkişaf tarixi yazılır







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, rayon ictimaiyyətinin nümayəndələrini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz Zəngilana. Uzun fasilədən sonra - 27 il erməni işğalından sonra artıq Zəngilan Vətənə qayıtdı, qaytardıq. Şanlı Ordumuz qəhrəmanlıq göstərərək Zəngilan şəhərini və bir neçə kəndi məhz düz bir il bundan əvvəl işğalçılardan azad etdi və beləliklə, 27 illik işğala son qoyuldu. İndi mən "Xoş gəlmisiniz" deyirəm, çünki mən sizi dəvət etmişəm ki, bu gözəl tarixi birlikdə burada qeyd edək. Amma bundan sonra mən Zəngilana gələndə zəngilanlılar "Xoş gəlmisiniz" deyəcəklər.

Milli Məclisin deputatı **İmamverdi İSMAYILOV:**

- Cənab Prezident, sağ olun. Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, icazə versəydiniz, Sizi qədim Zəngəzurumuzun bu dilbər guşəsi olan Zəngilanda salamlayardıq. Siz bizi artıq məcburi köçkünlükdən çıxarmısınız. Zəngilan çox bərəkətli torpağa malik olan bir diyardır, gözəl meşələri, təbii sərvətləri, filiz yataqları, çayları və dünyada ikinci, Avropada birinci olan təbii çinar meşələri - saymaqla qurtaran deyil. Amma cənab Prezident, vaxt var idi ki, biz gəlirdik Horadizə, sonra da Cocuq Mərcanlıya, oradan həsrətlə boylanırdıq öz yurdumuza. Amma taleyin hökmünə bax, dünən ayağımızla gələ bilmədiyimiz, maşınımızla gələ bilmədiyimiz diyarımıza indi hətta müasir hava limanı olan təyyarələrimizlə gələ bilirik. Çox sağ olun, var olun. Arzularımızdan Qarabağdakı reallığa gəldik. Gördüklərimiz düşüncələrimizi çox geridə qoyub. Bu gün Ulu Öndərimiz, böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin ruhu şaddır. Çünki zəngilanlılar Heydər Əliyevin xilaskarlıq missiyasını heç vaxt unutmurlar və unutmayacaqlar. Əgər o, böyük tarixi şəxsiyyət olmasaydı, 1993-cü ildə zəngilanlılar özünü Araza vurar, yolları hər yerdən bağlanmış və Araza qərq olmuş camaat növbəti Xocalı sakinlərinin taleyini yaşayacaqdı. İndi taleyin ədalətli məntiqinə baxın. Heydər Əliyev zəngilanlıların xilaskarı oldu, Siz isə Zəngilanın xilaskarı oldunuz.

**Prezident İlham ƏLİYEV:**

- Zəngilan, doğrudan da, çox füsunkar təbiətə malik olan bir diyardır. Mən ilk dəfə Zəngilana keçən ilin sonlarında gəldim, dekabr ayında və o vaxt heyran oldum bu diyara. Əzəmətli dağlar, yaşıl meşələr, çaylar, iqlim - bura, doğrudan da, Azərbaycanın ən gözəl yerlərindən biridir və məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. Çünki köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu. Zəngilan azad olunandan sonra artıq yolumuz Qubadlıya açıldı və beş gün sonra Qubadlı azad olundu, ondan sonra da Laçın dəhlizinə çıxdıq. Laçın dəhlizinə çıxdıqda demək olar, düşmən də bildi ki, artıq müqavimət göstərməyin mənası qalmayıb.

Amma indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirildi.

Aprel ayında Ağalı kəndinin təməli qoyuldu. Bu gün mən buraya gəlməzdən əvvəl işin gedişatı ilə tanış oldum. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq.

**İmamverdi İSMAYILOV:**

- Cənab Prezident, dünyanın bir çox aparıcı dövlətləri indi Azərbaycanın hərb modelini öyrənir. Özü də o model ki, Zəfər tarixi modelidir və dərsliyə düşüb. Siz Qarabağın və Zəngəzurun xilaskarı, Ali Baş Komandan kimi Azərbaycan dövlətini də, Azərbaycan Ordusunu da, Azərbaycan xalqını da müzəffər edən tarixi şəxsiyyət olaraq öz adınızı tarixə qızıl hərflərlə yazdırdınız.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun.

**İmamverdi İSMAYILOV:**

- İyirmi birinci əsrdə indiyədək görünməmiş tarixi möcüzə yaratdınız. Bu Qələbənin müəllifi, memarı özünüzsünüz. Ona görə də biz hamımız, bütün Azərbaycan xalqı Sizi çox istəyir və qəlbən sevir.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik. Əlbəttə ki, ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər buradayıq. Mən dördüncü dəfədir ki, Zəngilana gəlirəm. Dekabr ayında gəlmişdim, o vaxt vəziyyətlə tanış olduq. Ondan sonra fevral ayında gəlmişdim, o vaxt ermənilər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda çinar ağacları əkdik. Aprel ayında gələndə hava limanının təməli qoyuldu. İndi oraya baş çəkdim, artıq zolağın torpaq işləri hazırlanır. Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil. Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmir yolu məsələsi həll olunur. Bu gün Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri növbəti dəfə görüşəcəklər və bizim mövqeyimiz orada bir daha səslənəcək. Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları - bütün infrastruktur qurulacaq, paralel olaraq təbiətin qorunması, çayların qorunması. Bilirsiniz ki, Oxçuçayı ermənilər nə günə qoymuşlar. Oxçuçay təbii fəlakət zonasıdır. Oradan götürülən analizlər göstərir ki, zəhərli maddələrin həcmi normadan bəlkə də 10 dəfə, 20 dəfə artıqdır. Biz bu çayları təmizləyəcəyik və burada dağ-mədən sənayesi inkişaf edəcək. Vejnəli qızıl yatağını ermənilər xarici şirkətlərlə birlikdə qanunsuz olaraq istismar edirdilər. O xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verdik, yaxın gələcəkdə eşidəcəksiniz. Onların bu işdən boyun qaçırmaq cəhdləri demək olar ki, imkansızdır. Çünki hər şey göz qabağındadır. Başqa ölkənin ərazisində qanunsuz işlər görüb, buradan qızılı qanunsuz olaraq daşıyıb və dünya bazarlarında satıb. Biz onlarla əlbir olanları da məsuliyyətə cəlb edəcəyik. Beynəlxalq hüquqşünasları da cəlb etdik.





Artıq turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika, ətraf mühitin qorunması və əlbəttə ki, insanlar üçün şəraitin yaradılması istiqamətində işlər görülür. İndi Ağalı kəndi inşa edilir, Zəngilan şəhərinin baş planı təsdiq olunandan sonra burada da inşaat işlərinə start verəcəyik. Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcəkdir. Şübhəm yoxdur, bunu sizinlə birlikdə edəcəyik və sizin də məsləhətinizə ehtiyac olacaq. Ona görə ki, baş plan təqdim olunandan sonra gərək ictimaiyyət də öz fikrini desin. Çünki siz - burada yaşamış insanlar yaxşı bilirsiniz, harada nə olub. Yəqin siz bu dağıntıları görüb yadınıza salırsınız ki, burada nə olub.

**İmamverdi İSMAYILOV:**

- Cənab Prezident, xatırlamasam günah olar, bizim Zəngilan rayonunun ərazisində böyük Mincivan stansiyası yerləşirdi. Sovetlər dönəmində oraya hansı qatarlar gəlmirdi - Bakı-Qafan, Bakı-Noraşen, Bakı-Mincivan. O qatarlar bizim arzularımız idi. Bu yerlərin, yurdların insanları öz vaxtını, zamanının ölçüsünü o qatarların hərəkət qrafiki ilə qururdular. İndi Siz Azərbaycanın dəmir yollarını Zəngəzura və dünyaya açırsınız. Tezliklə o yollarla böyük qatarlar gələcək. Bu qatarlar Azərbaycanı dünya ilə qovuşduracaq. Bu da Sizin böyük quruculuq əzminizdən xəbər verir.

**Prezident İlham ƏLİYEV:**

- Mən birinci dəfə gələndə Mincivana getdim, orada dəmir yolu stansiyasının önündə Azərbaycan xalqına müraciət etdim. Orada demək olar ki, hər şey dağıdılıb. Bir şey yoxdur, dəmir yollarını onlar çoxdan daşıyıb aparmışdılar. O relslərdən tank əleyhinə istehkamlar qurmuşdular. Stansiyanın binası da tamamilə dağılmış vəziyyətdə idi.

**İmamverdi İSMAYILOV:**

- Cənab Prezident, Siz Mehriban xanımla qoşa qanad kimi Azərbaycanın bütün kəndlərini, Zəngəzuru, Qarabağı diyar-diyar gəzmisiniz, qarış-qarış gəzib ziyarət etmisiniz. Ən vacibi nədir? Siz o kəndləri, toponimlərin qədim adlarını bilirsiniz, bərpa edirsiniz, onları bizə öyrədirsiniz, həm də tarixi ədaləti bərpa edirsiniz. Bu, çox vacib amildir. Çünki bizim tariximizdə bunlar unudulmuş məqamlardır. Biz bunları bərpa etməliyik. Ona görə də biz Sizə böyük minnətdarlığımızı bildiririk.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun, buradan Naxçıvana yol açılacaq. Oradan da Türkiyəyə, oradan da Avropaya.

Əməkdar artist **Almaz ORUCOVA:**

- İcazə verin, mən dayandığımız bu torpağın müqəddəsliyini, şərəfini, qürurunu, dünyada başımızın ucalığını bizə təqdim etdiyiniz üçün Sizə dərin, sonsuz minnətdarlığımı çatdırım.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun.

**Almaz ORUCOVA:**

- Bir az əvvəl mən doğma ocağıma getdim.

**Prezident İlham ƏLİYEV:**

- Haradadır, sizin eviniz burada idi?

**Almaz ORUCOVA:**

- Bəli, bir az qabağa gedib sola çıxırsan, bizim evimizdir.

**Prezident İlham ƏLİYEV:**

- Ev qalıb, yoxsa dağıdılıb?

**Almaz ORUCOVA:**

- Heç nə qalmayıb, bir az yeri qalıb, daş qalıb. O doğma hissləri, o şirin hissləri, o xatirələri yaşamağı heç nə ilə əvəz edə bilmərəm. Siz bizim başımızı dünyada uca etdiniz. Azərbaycan Ordusunun, Azərbaycan xalqının dəyərli bir sərkərdəsinin olduğunu göstərdiniz. Var olun, sağ olun. Varlığınızla, sağlığınızla hər zaman bu xalqın, bu Ordunun başında olasınız.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun, sizə təşəkkür edirəm.

**Sakin:**

- Cənab Prezident, Elnur mənə dedi ki, kamançanı gətirməmişik. Mehriban xanım, dedim ki, kamançasız Zəngilana gəlmək olmaz. Almaz Orucova ilə birlikdə gözəl sürpriz hazırlayıblar.

Əməkdar artist **Elnur ƏHMƏDOV:**

- Doğma Zəngilan torpağında Sizi salamlayıram, Mehriban xanımı ürəkdən salamlayıram. Mən bu torpaqda dünyaya göz açmışam, məhz daşıyıcısı olduğum bu sənəti Zəngilan rayonunun Məmmədbəyli kəndində sevmişəm. Allah Sizləri var eləsin. Mehriban xanıma mən məxsusi təşəkkürümü bildirirəm ki, bizim muğamımızın dünyaya inteqrasiya olunmasında məxsusi xidmətləri var.

Cənab Prezident, biz "Qarabağ" muğam qrupu olaraq xanəndə, Xalq artisti Mənsum İbrahimov, sənət dostlarım Elçin Həşimov və Kamran Kərimov ilə birgə dünyanın demək olar, elə bir ölkəsi yoxdur ki, orada konsert proqramı ilə çıxış etməyək.

# Azərbaycanın abad və müasir bölgəsinə çevriləcək

## Zəngilanın yeni inkişaf tarixi yazılır






















Amma hər birimizin böyük arzumuz, bizim üçün dünyanın ən böyük səhnəsi Siz başda olmaqla, Mehriban xanım başda olmaqla Şuşada Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalı idi. Çünki bizim üçün ondan böyük, şərəfli gün yox idi. Cənab Prezident, hörmətli Mehriban xanım, mənim ən böyük arzum o idi ki, anadan olduğum o kənddə, uçuq da olsa, o evdə kamançamın səsi gəlsin.

**Sakin:**

- Kamançanın səsi gəlsin.

**Elnur ƏHMƏDOV:**

- O şəraiti bizə yaratdığınıza görə Sizə dərin təşəkkürümü bildirirəm.

Almaz Orucova Elnur Əhmədovun müşayiəti ilə muğam ifa edir.

**Sakinlər:**

- Sağ olun.

**Almaz ORUCOVA:**

- Çox sağ olun, Mehriban xanım.

**Prezident İlham ƏLİYEV:**

- Salam, necəsiniz? Bu kişini tanıyırsan, Mehriban?

Birinci xanım **Mehriban ƏLİYEVA:**

- Salam, necəsiniz? Şəhriyar Məmmədyarovun atasıdır?

**Prezident İlham ƏLİYEV:**

- Şəhriyar Məmmədyarovun atasıdır.

Birinci xanım **Mehriban ƏLİYEVA:**

- Xoş gördük.

**Prezident İlham ƏLİYEV:**

- Şəhriyar necədir?

**Həmid MƏMMƏDYAROV:**

- Çox sağ olun. Hər şey gözəldir, sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Sağ ol.

**Sakin:**

- Cənab Prezident, mən də təşəkkür edirəm. Biz 26 il idi, həmişə oktyabrın 20-dən başlayaraq dost-tanışla müzakirə edirdik ki, Zəngilanın işğalı günü gəlir, nə edək, nə tədbir keçirək? Daim o qəmi, qüssəni yaşayırdıq. Sağ olun ki, biz bu gün artıq Zəngilanın işğaldan azad olunmasının bir illiyini qeyd edirik. Siz az öncə qeyd etdiniz ki, Zəngilan böyük nəqliyyat dəhlizinə çevrilir və bu, bölgənin inkişafına çox böyük təsir göstərəcək. Dünyanın super gücləri bu gün nəqliyyat dəhlizləri uğrunda mübarizə aparırlar. Siz böyük işlərə imza atmısınız. Bütün zəngilanlılar, bütün Azərbaycan bu işdə Sizə uğurlar arzulayır. Biz Sizi həmişə dəstəkləyirik, yanınızdayıq. Uğurlar arzulayırıq. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. İşğal tarixi artıq tarixdə qaldı, əbədi silindi. İndi yeni tarix var - 20 oktyabr tarixi.

**Sakin:**

- Əsas məsələ də odur. Bu gün Zəngilanın azad olunan günüdür, cənab Prezident. Zəngilana ən böyük payınız, ən böyük ərməğanınız budur. Sağ olun.

**Sakin:**

- Cənab Prezident, mən də Zəngilan gəncləri və idmançıları adından Sizə dərin təşəkkürümü bildirirəm ki, bizi görmədiyimiz bu ata-baba yurdumuza gətirib çıxardınız. Allah Sizə bu işlərinizdə kömək olsun, var olun.

**Professor Adilə ABBASOVA:**

- Cənab Prezident, Sizə çox böyük minnətdarlığımızı bildiririk. Bu gözəl diyarda, odlar yurdu Azərbaycanımızın dilbər guşəsi olan Zəngilanda, qızıl Zəngilanda, azad Zəngilanda, zəngin Zəngilandayıq. Bu hissləri Siz bizə yaşatdınız. Biz bu dəqiqə Sizə qürurla baxırıq, Sizinlə danışırıq, söhbət edirik. Çox həyəcanlıyıq. Allah bizə bunu qismət etdi. Mən Sizə bütün zəngilanlılar adından minnətdarlığımı bildirirəm. Cənab Prezident, Siz Azərbaycan xalqının bütün arzularını yerinə yetirən böyük şəxsiyyətsiniz. Siz böyük, Müzəffər Sərkərdəsiniz. Dünyanın heç bir yerində Sizin kimi dövlət xadimi görməmişik. Siz 44 günlük Vətən müharibəsi ərzində Qarabağ məsələsinin mümkünsüzlüyünü mümkün etdiniz. Siz Azərbaycanın Zəfər tarixinə adınızı əbədi yazdınız. İndi bizim nəsildən qalanlardan biri mənəm. Atam da Zəngilan rayonunda çox işləyib, 14 il icraiyyə komitəsinin sədri olub. Demək istəyirəm ki, uşaqlıq illərim burada keçib. Siz Zəngilanı bütün dünyaya tanıtdınız. Ulu Öndər Sizin haqqınızda belə deyirdi: "Mən ona özüm qədər inanıram və onun gələcəyinə çox böyük ümid bəsləyirəm". Siz hər bir azərbaycanlının Prezidentisiniz. Ata vəsiyyətini yerinə yetirdiniz, Azərbaycan xalqının başını uca etdiniz, Azərbaycanı qalib dövlətə çevirdiniz.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun, çox təşəkkür edirəm.

**Adilə ABBASOVA:**

- Bu haqda çox fikirləşmişəm, mənə elə gəlir, dünyada elə bir dövlət xadimi yoxdur ki, Sizin kimi 44 gün ərzində belə bir Zəfər əldə etsin. Ona görə Siz dünyanın ən böyük mükafatına layiqsiniz. Sizə çox minnətdarıq.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Biz hələ Moskvadan bir-birimizi tanıyırıq. O vaxt azərbaycanlıların vətəndaş cəmiyyətində, Azərbaycan Assambleyasında bərabər iştirak etmişik.

**Adilə ABBASOVA:**

- Sizin fəaliyyətinizi mən hələ Moskvadan bilirəm, çox görmüşəm, eşitmişəm. Mənim yadımdadır, o cəmiyyət yaradılanda Ulu Öndər onunla maraqlanırdı. Azərbaycanlıların qurultayı keçirildi.

Demək istəyirəm ki, Sizin Azərbaycana bəxş etdiyiniz bu hisslər, bu sevinc xüsusi qeyd olunmalıdır. Mən ürəkdən danışan adamam, bəlkə də bir az həyəcanla danışıram. Amma ürəkdən danışıram. Cənab Prezident, Sizi bütün Azərbaycan xalqı ürəkdən sevir. Siz dünyanın ən böyük mükafatına layiqsiniz.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Ən böyük mükafatım bu gün burada Sizinlə bərabər olmağımdır.

**Adilə ABBASOVA:**

- Azərbaycan xalqının milli qüruruna çevrilən bir ifadə var: Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan! Eşq olsun, eşq olsun!

**Prezident İlham ƏLİYEV:**

- Azərbaycan xalqına eşq olsun!

**Adilə ABBASOVA:**

- Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyevə!

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. Çox sağ olun.

**Sakin:**

- Cənab Prezident, Vətən Müharibəsi Qəhrəmanı şəhid Surxay Noçuyevin atasıdır. Siz ona fəxri ad vermisiniz.

*Ardı 6-cı səh.*

# Zəngilan Qafqazın logistika-nəqliyyat mərkəzinə, Azərbaycanın abad və müasir bölgəsinə çevriləcək





## Zəngilanın yeni inkişaf tarixi yazılır





Əvvəli 5-ci səh.

**Şəhid atası Əbdül NOÇUYEV:**

- 44 günlük müharibə dövründə Sizin xalqa müraciətlərinizi mütəmadi olaraq izləmişik. Hər dəfə işğaldan azad olunan ərazilərin adları sadalandıqca bizim sevincimizin hədd-hüdudu olmayıb. Mənim oğlum, tabor komandiri kapitan Surxay Noçuyev Şuşa uğrunda gedən döyüşlərdə müharibənin 44-cü günündə qəhrəmancasına şəhid oldu.

**Prezident İlham ƏLİYEV:**

- Allah rəhmət eləsin!

**Əbdül NOÇUYEV:**

- Siz müvafiq sərəncamınızla ona Vətən Müharibəsi Qəhrəmanı adı verdiniz. Buna görə Sizə minnətdarlığımızı bildiririk. 2021-ci il sentyabrın 27-də Sizin və Mehriban xanımın iştirakı ilə yürüş keçirildi. Orada Surxay Noçuyevin şəkli həkk olunmuş lövhə ön cərgədə idi. Həmin lövhəni Sizin göstərişinizlə bizim ailəyə təqdim etdilər. Bu, bizim ailəmiz üçün ən böyük hədiyyə oldu. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz torpaqlarımızı onların canı-qanı bahasına işğalçılardan azad etmişik. Şəhid olmuş hər bir insan, gənc bizim ürəyimizdə, Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Şəhidlərin adlarının əbədiləşdirilməsi üçün əməli işlər gedir, bundan sonra da gedəcək. Anım günündə təşkil olunan yürüş bütün Azərbaycan xalqının birliyini göstərdi, şəhidlərimizin xatirəsinə olan hörmətimizi göstərdi. Yürüşdə aparılan portretlər mənim göstərişimlə gözəl bir xatirə kimi şəhid ailələrinə təqdim edildi. Çünki onlar bizimlə olmasalar da, bu Zəfər yürüşünə bizimlə bərabər çıxıblar. Yəni bütün Azərbaycan o gün orada idi. Onların ruhu bu gün şaddır. Onlar az yaşayıblar, dünyadan gənc gediblər, şəhid olaraq gediblər. Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar. Sizin simanızda onların valideynlərinə mən Prezident, Ali Baş Komandan kimi öz təşəkkürümü bildirmək istəyirəm. Çünki, doğrudan da, bizim şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər. Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq, xüsusilə Şuşa əməliyyatı tarixdə bəlkə də misli görünməmiş qəhrəmanlıq nümunəsidir. Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər. Sizin kimi valideynlər onları milli ruhda böyüdüb Vətənə bəxş etdiniz. Onlar da öz həyatlarını Vətənə bəxş etdilər. Mən sizi ürəkdən təbrik edirəm, təşəkkürümü bildirirəm və qucaqlayıram, bağrıma basıram.

**Əbdül NOÇUYEV:**

- Çox sağ olun, cənab Prezident.

* * *

Xatirə şəkilləri çəkdirildi.

* * *

**İmamverdi İSMAYILOV:**

- Cənab Prezident, biz orta məktəbdə oxuyanda Zəngilanda xoş bir ənənə var idi. Biz bu dağlara, təbiətin bu gözəl guşələrinə çaylardan çınqıllar yığıb gətirərdik. Orada o çınqıllardan ürək sözlərimizi, Vətənlə bağlı sözlərimizi yazardıq. Yeni tarixi Siz diktə etdiniz, yeni tarixin müəllifisiniz. Ona görə Zəngilanda tikiləcək məktəbin şagirdləri, bugünkü müasir tariximizə, Zəfər tariximizə şahidlik edən gənclərimiz yenidən çınqıllar və daşlar daşıyıb bu təpələrdə Azərbaycanın əzəmətlə dalğalanan o bayraqlarının altında Azərbaycanın xəritəsini çəkəcək və yeni sözlər yazacaqlar. Yazacaqlar "Qarabağ Azərbaycandır!" Bu yurdların xilaskarına eşq olsun! Böyük qayıdışımız mübarək, cənab Prezident!

**Prezident İlham ƏLİYEV:**

- Bu gün yarımstansiyanın da açılışını etdik. Mənə məlumat verildi ki, sovet vaxtında Zəngilan rayonunun ümumi enerji tələbatı cəmi 7 meqavat idi, çünki əhali o qədər də çox deyildi. İndi isə biz gələcək inkişafı nəzərə almaq şərti ilə yarımstansiyanı 50 meqavatlıq etdik. Bir də ki əhali artıb. İşğala qədər Zəngilan rayonunun əhalisi təqribən 30 mindən bir qədər çox idi. İndi 45 minə çatıb və əminəm ki, zəngilanlıların hamısı gəlib burada, belə bir gözəl yerdə, doğma vətəndə yerləşəcək.

**Sakin:**

- Təşəkkür edirik, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:**

- Biz indi məscidi də bərpa edirik.

**Axund:**

- Bu məsciddə axund işləmişəm. Mehriban xanıma da təşəkkür edirik. Bu xoş günləri bizə yaşatdığınıza görə Sizə bir daha təşəkkür edirəm. Əslində, Siz bizə ikinci dəfə Zəngilanda yaşamağı qismət edibsiniz. Cənab Prezident, Sizə bütün Zəngilan camaatı adından təşəkkür edirəm.

Birinci xanım **Mehriban ƏLİYEVA:**

- Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ ol. Heydər Əliyev Fondu məscidin bərpası ilə məşğuldur, artıq orada lövhələr də qoyulub. Biz də burada olanda simvolik olaraq təməl daşını da qoyduq. Onu da bərpa edəcəyik.

Birinci xanım **Mehriban ƏLİYEVA:**

- O qalan hissəni.

**Prezident İlham ƏLİYEV:**

- Bəli, qədimdən qalan o hissəni bərpa edəcəyik. Mənə dedilər ki, sovet vaxtında ora klub idi, ya da anbar.

**Sakin:**

- Ora bizim kəndimizin meşəsidir. Azərbaycanın böyük münbit meşələrindən biridir.

**Prezident İlham ƏLİYEV:**

- Sizin kəndiniz buradadır?

**Sakin:**

- Bəli, Vənədli kəndi, aşağıdadır. Bütün ağacları qırıblar - cökə, palıd, vələs, ulas. Tarixin çox məşhur ağacları olan böyük meşələrdən biri olub.

**Prezident İlham ƏLİYEV:**

- Kəsib daşıyıblar ağacları. Biz Bəsitçayda olanda gördük ki, hətta kötükləri yandırıblar. Kəsiblər ağacları, yandırıblar. Bəsitçay qoruğunun bir hissəsi qalıb, ora 100 hektardan böyük bir ərazi idi.

**Sakin:**

- Bəli, dövlət qoruğu olub əvvəllər.

**Prezident İlham ƏLİYEV:**

- Bəli, siz də dediniz, Avropada birinci çinar meşəsidir.

**Sakin:**

- Cənab Prezident, Ali Baş Komandan, sərkərdə kimi 44 günü nə qədər narahat keçirdiniz. Dünyanın bu vaxtında belə qərar qəbul etmək, savaşı bu cür Zəfərlə başa çatdırmaq, bunları belə peşəkarlıqla idarə etmək Sizin əsl liderliyinizdən xəbər verir. Cənab Prezident, çox sağ olun, çox minnətdarıq.

**Prezident İlham ƏLİYEV:**

- Siz sağ olun.

**Sakin:**

- Zəngilan azad olunan gün zəngilanlıları bu ocağa topladınız. Çox sağ olun, minnətdarıq.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun.

**Sakin:**

- Tarix unudulmur.

**Prezident İlham ƏLİYEV:**

- Tarixi gündür. Tarix həmişə olacaq. 20 oktyabr həm zəngilanlılar üçün, həm bütün xalqımız üçün əbədi bir Zəfər günü kimi qalacaq. Çünki azad edilmiş hər bir şəhərin azad olunma günü tarixi Zəfər günüdür.

**Sakinlər:**

- Cənab Prezident, Mehriban xanım, gün o gün olsun ki, Sizi abad Zəngilanda qarşılaya bilək. Sizə uğurlar arzu edirik. Qədəmləriniz uğurlu olsun. Çox sağ olun. İnşallah, abad Zəngilanda gözləyəcəyik.

Birinci xanım **Mehriban ƏLİYEVA:**

- İnşallah. Allah amanında. Sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Bir daha təbrik edirəm.

**Sakinlər:**

- Sağ olun, hər şeyə görə sağ olun.

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554; Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 360-VIQD, 364-VIQD və 369-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 9.1.20-ci maddəyə "müharibə veteranları," sözlərindən sonra "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər," sözləri əlavə edilsin.
2. 11.1.3-cü maddəyə "birinci dərəcə" sözlərindən əvvəl "işləyib-işləməməsindən asılı olmayaraq müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

## Şəhid ailələrinə və qazilərə diqqət daim gündəmdədir

Əvvəli 1-ci səh.

Müharibə əlillərinin normal həyata qayıtması da diqqət mərkəzindədir. Qazilərimiz xarici ölkələrin istehsalı olan müasir protezlərlə təmin edilirlər. Bu, onların hərəkət qabiliyyətinin təmin edilməsində mühüm rol oynayır. Eyni zamanda bu kateqoriyadan olanların sosial təminatını daha da yaxşılaşdırmaq üçün müvafiq tədbirlər görülür. İndiyədək Vətən müharibəsində yaralanmış 2050-dək qaziyə əlillik və müvafiq sosial ödənişlər təyin edilib. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən əlilliyin qiymətləndirilməsi işləri davam etdirilir. Beləliklə, əlillik təyinatından sonra onlara əlillik ödənişlərinə uyğun olaraq birdəfəlik sığorta ödənişi və elektron sistem üzərindən proaktiv qaydada aylıq sosial ödənişlərin, yəni Prezidentin aylıq təqaüdünün və əlilliyə görə müavinət, yaxud əlilliyə görə əmək pensiyalarının təminatı həyata keçirilir.

Bu işdə sosial ədalətin qorunmasına da xüsusi diqqət göstərilir. Agentliyin həkim-ekspertlərindən ibarət işçi qrupu və Nazirlər Kabinetinin qərarı ilə yaradılmış komissiyada təmsil olunan digər qurumların nümayəndələri birlikdə çalışırlar. Onlar ilk növbədə hərbi qulluqçuların əyani müayinəsini həyata keçirirlər. Müdafiə və Ədliyyə nazirliklərinin, Daxili Qoşunların, Dövlət Sərhəd Xidmətinin hərbi həkim komissiyaları tərəfindən xəsarət və ya xəstəliklərin hərbi xidmətlə əlaqəsi müəyyənləşdirilir və yekun mərhələdə qazilərin əlilliyinin qiymətləndirilməsi aparılır.

Vətən müharibəsi qələbəmizlə başa çatdıqdan dərhal sonra şəhid ailələrinin və qazilərin məşğulluğunun təmin edilməsi zərurəti də yarandı. Həmin kateqoriyadan olan insanların məşğulluğunu yaxşılaşdırmaq məqsədilə "Məşğulluq marafonu"na start verildi. Bu işə dövlət qurumları ilə yanaşı, özəl sektor da dəstək verir. Nazirlik tərəfindən cari ilin iyun ayından başladılan marafonda 558 işəgötürən, 3057 vakansiya yeri təqdim edilib. Həmin vakansiyalar üzrə verilən göndərişlər əsasında indiyədək 906 nəfər işlə təmin olunub. Bunlardan 145-i şəhid ailəsi üzvü, 761-i isə qazidir. Bu proses davam edir. Məqsəd daha çox şəhid ailəsi üzvünü və qazini işlə təmin etməkdir. Bununla paralel olaraq nazirlik tərəfindən həmin kateqoriyadan olan insanların məşğulluğunu təmin etmək məqsədilə kiçik sahibkarlıq subyektlərinin yaradılmasına da dəstək verilir. Belə kiçik müəssisələrdə həmin kateqoriyadan olan ailələrin üzvləri fərdi və ya kollektiv şəkildə çalışırlar. Bu da onların sosial vəziyyətlərinin daha da yaxşılaşmasına imkan yaradır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Parlament Sədrlərinin Avropa Konfransında çıxış edib






Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Yunanıstanın paytaxtı Afinada keçirilən Parlament Sədrlərinin Avropa Konfransında iştirak edir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 21-də konfransın açılış mərasimi keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova "Demokratiya COVID-19 pandemiyasının səhiyyədə yaratdığı böhranla üz-üzə: təcrübə mübadiləsi, növbəti addımlar" mövzusunda keçirilən müzakirələrdə çıxış edib. İki ilə yaxındır ki, bəşəriyyətin öz tarixinin ən təhlükəli pandemiyalarından birinə qarşı mübarizə şəraitində yaşadığını bildirən spiker əminliyini bildirib ki, bu gün COVID-19 pandemiyası ilə mübarizədə dövlətlər arasında əməkdaşlığa hər zaman olduğundan daha çox ehtiyac var. Peyvəndlər də daxil olmaqla müalicə üsullarının inkişafındakı böyük elmi nailiyyətlərə baxmayaraq, pandemiya təxminən 5 milyona yaxın insanın ölümünə səbəb olub və COVID-19 pandemiyası bu gün də davam edir. Bu pandemiya dünyada yoxsulluğu daha da dərinləşdirib və cəmiyyətlərin həssas təbəqələrinin vəziyyəti daha da ağırlaşıb.

Spiker S.Qafarova böhranın sonrakı təsirlərinin bir çox ölkələrdə ciddi çətinliklərə səbəb olacağı, çətinliklə qazanılan inkişaf meyillərinə mənfi təsir edəcəyi, həmçinin Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq yolunda irəliləməyə mane olacağı ilə bağlı narahatlığını ifadə edib.

Çıxışında Sahibə Qafarova Azərbaycan dövlətinin COVID-19 infeksiyasının ölkəmizdə aşkar edildiyi ilk günlərdən bu bəlaya qarşı həyata keçirdiyi tədbirlər haqqında məlumat verib. Bildirib ki, Azərbaycanda pandemiyaya qarşı mübarizə sahəsində fəaliyyətin bir mərkəzdən idarə edilməsi məqsədilə Prezidentin Fərmanı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb, ölkənin bütün ərazisində karantin rejimi tətbiq edilib. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq, tədris müəssisələrində dərslər təxirə salınıb, iri ticarət mərkəzlərinin, idman obyektlərinin, əyləncə yerlərinin fəaliyyəti dayandırılıb, ictimai iaşə müəssisələrinin iş vaxtı dəyişdirilib, digər zəruri tədbirlər görülüb.

Milli Məclisin Sədri Azərbaycanın pandemiyaya qarşı qlobal mübarizəyə və beynəlxalq təşəbbüslərə dəstəyi haqqında da danışaraq bildirib ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizə sahəsində beynəlxalq səylərə sanballı töhfələr verib. Ölkəmiz pandemiya ilə mübarizə üçün 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. Azərbaycan 4 ölkəyə 150 min doza peyvənd ianə göndərib. 2020-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19-a qarşı Təmas Qrupunun Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının pandemiyaya qarşı mübarizəyə həsr olunmuş Xüsusi Sessiyasının keçirilməsini təklif edib, həmin təşəbbüs 150-dən çox dövlət tərəfindən dəstəklənib və ötən ilin dekabrında Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyası baş tutub.

Spiker qeyd edib ki, qlobal səhiyyə böhranı zamanı "peyvənd millətçiliyi" ciddi narahatlıq doğurur. Biz Avropa Şurasının üzvləri olaraq bəzi ölkələrin ehtiyaclarından qat-qat artıq peyvənd tədarük etməsinin qarşısını almağa çalışmalıyıq. Azərbaycan bu məsələni gündəmdə saxlamaq məqsədi ilə BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər çıxışının təmin edilməsinə dair qətnamə layihəsi irəli sürüb və həmin qətnamə cari ilin martında yekdilliklə qəbul edilib.

Sahibə Qafarova deyib ki, beynəlxalq hesabatlara görə, dünyanın peyvənd dozalarının 75 faizindən çoxu bir neçə inkişaf etmiş ölkə tərəfindən alınsa da, aşağı gəlirli ölkələrdə peyvəndlə təminat 2 faizdən azdır. Şübhəsiz ki, bu fakt inkişaf etməkdə olan və ya az inkişaf etmiş ölkələrin əhalisini qorumaq imkanlarını məhdudlaşdırır. Bu problemi həll etmək üçün Azərbaycan Qoşulmama Hərəkatı adından Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasında bütün ölkələr üçün vaksinlərə ədalətli və universal çıxışın təmin edilməsi haqqında qətnamə təşəbbüsü ilə çıxış edib və bu qərar yekdilliklə təsdiq edilib. Biz hər fürsətdən istifadə edib pandemiya ilə mübarizədə ehtiyacı olan ölkələrə beynəlxalq donor təşkilatları da daxil olmaqla inkişaf etmiş ölkələrin dəstək göstərməsi ilə bağlı çağırış edirik.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan dünyanın pandemiyadan daha tez və daha az itkilərlə xilas olması üçün qlobal tədbirlərə dair tövsiyələr verə biləcək BMT-nin Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını məqsədəuyğun hesab edir.

# Azərbaycan Milli Məclisinin Sədri İsveçrə Federal Assambleyası Milli Şurasının Sədri ilə görüşüb



Oktyabrın 21-də Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstana işgüzar səfəri çərçivəsində İsveçrə Konfederasiyası Federal Assambleyası Milli Şurasının Sədri Andreas Aebi ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulanıb. Siyasi sahədə mövcud olan yüksək səviyyəli əməkdaşlığın iqtisadi sahədə əlaqələrin inkişafına da müsbət töhfə verdiyi qeyd edilib.

Söhbətdə Azərbaycan ilə İsveçrə arasında əlaqələrin inkişafında qanunverici orqanların rolu vurğulanıb, o cümlədən dostluq qrupların müsbət fəaliyyəti qeyd olunub. Bildirilib ki, qanunverici orqanlar arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün qarşılıqlı səfərlər və fikir mübadiləsi əhəmiyyətlidir.

Görüşdə ikitərəfli və çoxtərəfli formatda əməkdaşlığın perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər barədə danışılıb.

# Milli Məclis Sədrinin müavini şəhid ailələrini ziyarət edib

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev parlamentin deputatı Vüqar Bayramovla birlikdə Füzuli rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyublar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sonra Adil Əliyev və Vüqar Bayramov Füzuli rayonunda şəhid ailələrinə baş çəkib, şəhidlərimizin anım tədbirlərində iştirak ediblər.

Anım tədbirlərində Milli Məclis Sədrinin müavini Adil Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli ordumuzun torpaqlarımızı düşmən işğalından azad edərək xalqımıza tarixi Qələbə bəxş etməsinə diqqət çəkib. Bildirilib ki, məhz qəhrəmanlarımızın şücaəti nəticəsində 30 illik düşmən işğalına son qoyulub.

Söhbətlər zamanı bir neçə gün əvvəl Füzuli şəhərinin düşmən işğalından azad edilməsinin birinci ildönümü münasibətilə bölgəyə səfər edən dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli şəhərində müxtəlif infrastrukturların əsasını qoyduğu qeyd edilib. Regionda ilk dəfə Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlinin qoyulmasından danışan vitse-spiker rayonda 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsinin salınmasına diqqət çəkib.

Deputat Vüqar Bayramov Vətən müharibəsində qazandığımız tarixi Qələbə ilə BMT-nin 30 il müddətində icra edilməyən dörd qətnaməsinin ölkəmizin cəmi 44 gün müddətində sülhəməcburetmə əməliyyatları ilə icra edərək tarixi nailiyyətə imza atdığını vurğulayıb. O, tarixi Qələbəmizin qazanılmasında şəhidlərimizin dünyada ən şirin nemət olan canlarından keçməsini, göstərdikləri şücaəti xüsusi vurğulayaraq, bununla da Azərbaycanın şərəf tarixinin ən parlaq səhifəsini yazdıqlarını bildirib.

# Milli Məclisin Sədri Sahibə Qafarova ATƏT PA-nın Sədri ilə görüşüb

Oktyabrın 21-də Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstana işgüzar səfəri çərçivəsində Afinada ATƏT Parlament Assambleyasının Sədri Marqareta Sederfelt ilə görüşüb.



ATƏT Parlament Assambleyası Sədrinin müraciəti əsasında baş tutan görüşdə Azərbaycan Milli Məclisin Sədrini salamlayan Marqareta Sederfelt təmsil etdiyi təşkilatın fəaliyyəti barədə məlumat verib. O, qlobal pandemiya səbəbindən görüşlərin və canlı təmasların böyük qisminin baş tutmadığını bildirərək, ümidvar olduğunu deyib ki, pandemiya təhlükəsi aradan qalxdıqdan sonra belə görüşlər daha sıx-sıx keçiriləcək. Marqareta Sederfelt ATƏT PA-nın Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edib, həmçinin regionda sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın təşkilatdakı fəaliyyəti barədə danışıb, ölkəmizin nümayəndə heyətinin həmişə ATƏT PA-nın tədbirlərində fəal iştirak etdiyini bildirib.

Spiker görüşdə Azərbaycanın ötən il 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən sonra regionda yeni mərhələnin başlandığını qeyd edib. Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızı azad edərək, ərazi bütövlüyünü bərpa edib. Bununla da ölkəmiz həm də BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini özü yerinə yetirib. Spiker vurğulayıb ki, Rusiya, Azərbaycan Prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli Bəyanatla münaqişəyə son qoyulub və Dağlıq Qarabağ münaqişəsi artıq keçmişdə qalıb. Milli Məclisin Sədri "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinə istinad etməyin də yolverilməz olduğunu bildirib.

Azərbaycanın üçtərəfli Bəyanatda əksini tapan bütün öhdəliklərini yerinə yetirdiyini bildirən Sahibə Qafarova vurğulayıb ki, Ermənistan tərəfindən törədilən təxribatlar regionda davamlı sülhün təmin olunmasına maneə törədir. O deyib ki, 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Onlar tərəfindən təqdim olunan bəzi xəritələrin dəqiqliyi isə yalnız 25 faizdir. S.Qafarova xüsusi olaraq vurğulayıb ki, bu günədək Ermənistan tərəfindən basdırılan minaların partlaması nəticəsində 150 mülki vətəndaş və hərbçimiz həlak olub və ya ağır yaralanıb.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu fərmana əsasən, iki yeni rayon - Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlayıb.

Sahibə Qafarova deyib ki, Azərbaycan regionda daimi sülh və əmin-amanlığın təmin olunmasını istəyir. O xatırladıb ki, Prezident İlham Əliyev də ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına və sülh sazişinə dair danışıqlara başlamağa hazır olduğunu bəyan edib.

Azərbaycanın çoxmillətli ölkə olduğunu, burada 90-dan çox etnik qrupun, müxtəlif xalqların və millətlərin nümayəndələrinin yaşadığını, bütün xalqların adət-ənənəsinə hörmətlə yanaşıldığını, ölkəmizdə ksenofobiya və dözümsüzlüyün olmadığını vurğulayan Milli Məclisin Sədri Azərbaycanın dövlət siyasətində milli və dini tolerantlığın prioritet istiqamətlərdən olduğunu bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova ATƏT Parlament Assambleyasının Sədrinə "Qarabağ işğaldan əvvəl və sonra" adlı kitabı təqdim edərək, Ermənistanın 30 il ərzində işğal altında saxladığı Azərnbaycanın şəhər və rayonlarını, bütün infrastrukturu, mədəniyyət və tarixi abidələri, dini abidələri tamamilə dağıtdığını, talan etdiyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Milli Məclisin Mətbuat xidməti***

# Vətən müharibəsində Zəfərin birinci ildönümünə həsr olunmuş elmi-praktiki konfrans

Oktyabrın 21-də Milli Məclisin və Azərbaycan Dillər Universitetinin (ADU) birgə təşkilatçılığı ilə Vətən müharibəsində Zəfərin birinci ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov çıxış edərək bildirib ki, bir il əvvəl başlayan Vətən müharibəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında səfərbər və həmrəy olan Azərbaycan işğal edilmiş torpaqlarını erməni tapdağından qurtarmaqla, həm də regionda beynəlxalq hüququ və ədaləti bərqərar edib. Natiq xalqımızı Qələbəyə aparan yolun başlanğıcından - Ulu Öndər Heydər Əliyevin uzaqgörən ordu quruculuğu siyasətindən və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi nəticəsi olan Zəfərə qədər keçən dövrə nəzər salıb.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə edilən Qələbənin əhəmiyyətinə toxunan Z.Əsgərov Azərbaycan tarixinin ən parlaq səhifəsi olan bu Zəfər yolunda qarşılaşdığımız çətinliklərdən, haqsızlıqlardan bəhs edib. Bütün bunların unudulmaması, öyrənilməsi, Qələbənin yaratdığı nəticələrin qorunması üçün belə konfransların keçirilməsinin əhəmiyyətini qeyd edib.

Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla konfransın əhəmiyyətini vurğulayıb. Bu gün qalib xalq kimi dünyanın diqqət mərkəzində olduğumuzu, üzərimizə xüsusi məsuliyyət düşdüyünü bildirən rektor qalibiyyətin xalqın mənəviyyatında və milli şüurunda dərin iz buraxdığını deyib.

Prezident İlham Əliyevin strateji səbirlə, uzaqgörən siyasətlə, xalqa arxalanan idarəetmə ilə bu möhtəşəm Qələbənin potensial əsaslarını yaratdığını deyən Kamal Abdulla Azərbaycan dəyərlərinin, intellektinin və həqiqətlərinin azad edilmiş torpaqlarda, Qarabağda parlaq təcəssümünü tapacaq günlərin yaxında olduğuna inamını bildirib.

Sonra ADU-nun dosent və müəllimləri - Namiq Kərimov "Müstəqillik dövründə aparılmış iqtisadi siyasət qələbəmizin rəmzidir", Bəhmən Əliyev "Vətən müharibəsində gənclərin rolu", Mehriban Babaxanova "Azərbaycan beynəlxalq hüququn təminatçısı kimi", Elşən Məcidov "Perspektivlər nəzəriyyəsi prizmasından Ermənistanın II Qarabağ müharibəsindən sonra rəqabətəmeyilli siyasətinin izahı", Anar Rəhimov "44 günlük Vətən müharibəsində ADU-nun informasiya savaşında iştirakı", Rəfi Qurbanov "Zəfərə gedən yolda milli dəyərlərin rolu" mövzularında çıxışlar ediblər. Çıxış edənlər Prezident İlham Əliyevin güclü ordu qurmaqla hər bir azərbaycanlıya qələbə əzmi və inamı aşılamasından, Azərbaycan dövlətinin heç kimdən yardım istəmədən regionda tarixi ədaləti, beynəlxalq hüququ bərqərar etməsindən, Azərbaycan vətəndaşlarının, xüsusən gəncliyinin Vətən müharibəsi sınağından şərəflə çıxmasından, xalqın monolit birliyindən, əsgər və zabitlərimizin qəhrəmanlığından danışıblar.

Tədbirdə şəhidlərimizin əziz xatirəsi yad edilib, şəhid ailələrinə səbir dilənib, yaralılarımıza və qazilərimizə cansağlığı arzulanıb.

# MDB PA-nın komissiyalarının və səhiyyə üzrə ekspert şurasının iclası keçirilib

Oktyabrın 21-də Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasının (MDB PA) iki daimi komissiyasının və səhiyyə üzrə ekspert şurasının videokonfrans formatında iclasları keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclaslarda 2020-ci ildə görülən işlər təhlil edilib, icraatlarda olan məsələlərə nəzər salınıb, model qanun və tövsiyə layihələri fikir plüralizmi şəraitində müzakirə olunub, rəy və təkliflər irəli sürülüb. Həmçinin komissiya iclaslarında təşkilati məsələlərə baxılıb, hər üç strukturun növbəti iclasının tarixi və ilkin gündəliyi müəyyənləşdirilib.

İlk olaraq MDB PA-nın Dövlət quruculuğu və yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi üzrə daimi komissiyasının iclası keçirilib.

İclasda Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva da iştirak edib.

MDB-yə üzv dövlətlər üçün dayanıqlı inkişaf konsepsiyalarının layihələri və dayanıqlı inkişaf konsepsiyalarının qanunverici əsasları haqqında məruzə dinlənilib, seçkiləri və referendumları müşahidə üzrə MDB ölkələrinin beynəlxalq müşahidəçiləri üçün yeni tövsiyə layihəsi üzərində görülən işlər nəzərdən keçirilib. Sonra dövlət və bələdiyyə sektorunda seçkilərin keçirilməsinin bir çox aspektləri, həmçinin xidmətlərin göstərilməsi, əmlakın özəlləşdirilməsi kimi məsələlərlə bağlı model qanun layihələri müzakirə olunub.

Qeyd edək ki, Milli Məclisin deputatı Jalə Əliyeva "MDB üzv-dövlətləri üçün dayanıqlı inkişaf konsepsiyaları layihələri və MDB üzv-dövlətləri üçün dayanıqlı inkişaf konsepsiyalarının qanunverici əsasları haqqında" məsələ ilə bağlı səsvermədə Azərbaycan tərəfinin xüsusi mövqeyə malik olduğunu ifadə edib və buna görə də bitərəf qaldıqlarını bildirib.

MDB PA-nın Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə daimi komissiyanın onlayn iclasında isə gündəlikdə duran "Radioaktiv çirklənməyə məruz qalmış ərazilərin hüquqi rejimi haqqında", "Ekoloji təhlükəsizlik haqqında" (yeni redaksiyada), "İstehsal və istehlak tullantıları haqqında" "(yeni redaksiyada), "Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" (yeni redaksiyada), "Ekoloji informasiyanın əlçatanlığı haqqında" (yeni redaksiyada), "Ekoloji fondlar haqqında", "Arıçılıq haqqında", "Orqanik kənd təsərrüfatı haqında", "Mədənçıxarma fəaliyyətinin ətraf ərazidə yaşayan əhalinin sağlamlığına potensial təsirinin qiymətləndirilməsi haqqında" model qanun və tövsiyə layihələrinə baxılıb, digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Qeyd edək ki, iclasda Milli Məclisin deputatı, MDB PA-nın Aqrar siyasət, təbii ehtiyatlar və ekologiya üzrə daimi komissiyasının sədr müavini Mixail Zabelin də iştirak edib.

MDB PA nəzdində Səhiyyə üzrə ekspert şurasının iclasında "MDB üzv-dövlətlərində dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün bioetika, müqayisəlisəhiyyə və bərpa prinsipləri" mövzusunda informativ sessiya keçirilib. Sessiyada MDB üzv-dövlətlərində dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün dövlətlərin milli səhiyyə sistemlərinin təkmilləşdirilməsi aspektləri, biotəhlükəsizliyin təminatının hüquqi-təşkilatı yönləri, ilkin sosial-iqtisadi şərtlərin korrelyasiyası kimi məsələlər araşdırılıb, fikir mübadiləsi aparılıb.

Tədbirdə Milli Məclisin deputatı Anatoliy Rafailov iştirak edib.

# YAP Mərkəzi Aparatında “Vətən müharibəsi: Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi” mövzusunda “dəyirmi masa” keçirilib



Oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında “Vətən müharibəsi: Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi” mövzusunda “dəyirmi masa” keçirilib.

AZƏRTAC xəbər verir ki, “dəyirmi masa”da Milli Məclisin komitə sədrləri, parlamentdə təmsil olunan siyasi partiyaların rəhbərləri, hərbi, siyasi ekspertlər, QHT rəhbərləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

“Dəyirmi masa”da çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, müasir dövrdə hər bir ölkənin gücünü müəyyən edən əsas amillərdən biri milli həmrəylik faktorudur. Həmrəylik, əsas etibarilə, cəmiyyətin ümummilli məsələlər ətrafında səfərbər edilməsindən, toplumun mənəvi-siyasi enerjisinin milli maraqların qorunmasına yönləndirilməsindən asılıdır. Tarixi faktlar və reallıqlar təsdiq edir ki, burada əsas - aparıcı amil lider faktoru və ya liderlik fenomenidir.

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycanda xalq-lider birliyi, yəni milli həmrəylik amili həm müstəqilliyimizin, suverenliyimizin qarantı, həm də davamlı uğurlarımızın təminatçısıdır: “Ümumiyyətlə, müstəqillik dövrünün prosesləri və reallıqları təsdiqləyir ki, milli həmrəylik xalqımız, dövlətimiz üçün taleyüklü anlarda həlledici faktor kimi çıxış edib. Ümummilli Lider Heydər Əliyev Azərbaycanda milli həmrəyliyi təmin etməklə sabitliyin və təhlükəsizliyin qorunmasına, inkişafın davamlı prosesə çevrilməsinə nail ola bilib. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər ərzində həmrəylik Azərbaycan dövlətinin milli gücünü artıran amillərdən biri olub. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 18 il ərzində isə milli həmrəyliyin daha da gücləndirilməsi Azərbaycanın möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etməsinə gətirib çıxarıb və ölkəmizin dünya birliyində layiqli yer tutmasını şərtləndirib. Azərbaycanın adının dünya siyasi tarixinə qalib ölkə kimi yazılmasını, tarixi ədalətin, milli ləyaqətin və milli qürurun bərpasını təmin edən 44 günlük Vətən müharibəsində qazanılmış qələbədə isə milli həmrəylik amilinin yeri və rolu müstəsnadır. Daha dəqiq desək, Prezident-Xalq-Ordu birliyi Azərbaycanın tarixi qələbəsinin əsasında duran ən mühüm amildir”.

Tahir Budaqovun sözlərinə görə, 44 günlük Vətən müharibəsi dövründə ölkəmizdə fəaliyyət göstərən əksər siyasi partiyalar Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial siyasətinə qətiyyətli dəstək göstərdilər, müxtəlif xalqların nümayəndələri yumruq kimi birləşərək döyüş meydanına atıldılar, gənclərimiz Vətənin bütövlüyü uğrunda mübarizəyə qatılaraq şərəf və şanlı qürur tarixi yazdılar. İkinci Qarabağ müharibəsinin nəticəsi olan tarixi qələbə Prezident-Xalq-Ordu birliyinin möhtəşəmliyini, Azərbaycan dövlətinin bütöv gücünü, xalqımızın isə mübarizə əzmini - sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Bir daha sübuta yetirildi ki, güclü - qüdrətli Azərbaycan mürəkkəb beynəlxalq şərtlərə və şəraitə, bəzi dairələrin təzyiq cəhdlərinə baxmayaraq, istənilən strateji hədəfini reallaşdırmaq əzmində və iqtidarındadır.

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, Prezident-Xalq-Ordu birliyinin təntənəsi olan möhtəşəm Qələbənin nəticələri təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpasını deyil, eyni zamanda istər Cənubi Qafqaz regionunda, istərsə də Avrasiyada yeni geostrateji reallıqların təşəkkülünə səbəb olub: “Azərbaycan öz milli gücü, hərbi-siyasi resursları ilə işğal faktına son qoymaqla - münaqişəni və separatizm faktını aradan qaldırmaqla yeni təhlükəsizlik və əməkdaşlıq mühiti formalaşdırıb. Yeni reallıqlar fonunda şərtləri qalib və üstün tərəf olan Azərbaycan diktə edir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpa olunması regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir. Bütün bunlar xalq-lider birliyinin postmüharibə dövründə də Azərbaycanı siyasi-diplomatik və sosial-iqtisadi müstəvidə mühüm uğurlara daşıdığını, ölkəmizin qarşısında parlaq perspektivlər açdığını göstərir. Reallıqlar deməyə əsas verir ki, Azərbaycan bundan sonra da Prezident-Xalq-Ordu birliyi sayəsində öz mövqeyini daha da möhkəmləndirəcək, siyasi və iqtisadi imkanlarını genişləndirərək mühüm üstünlüklər qazanacaq. Bu isə xalqımızın milli sərvəti olan müstəqilliyimizin qorunması, tarixi qələbəmizin nəticələrinin möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında davamlı yüksəlişi və nəhayət, daha güclü - daha qüdrətli Azərbaycan deməkdir!”

Sonra Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı “Siyasi dialoq və həmrəylik” mövzusunda çıxış edərək bildirib ki, Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu, torpaqlarımız işğaldan azad edildi. Onun sözlərinə görə, müharibədən sonra yeni Azərbaycan yaranıb: “Torpaqlarımızın işğaldan azad edilməsi məsələsində əksər siyasi partiyaların bir araya gəlməsi müharibədə Qələbəyə təsir edən amillərdən biri oldu. Vətən müharibəsi başlayan gün ölkədə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti birgə bəyanat imzalayaraq Ali Baş Komandana və orduya dəstək nümayiş etdirdilər. Ümummilli məsələlərdə vahid mövqeyin qorunması əsas şərtdir”.

S.Rüstəmxanlı qeyd edib ki, bu gün dünyada siyasi ünsiyyəti dialoqsuz təsəvvür etmək mümkün deyil. Azərbaycanda normal dialoq mühitinin formalaşdığını deyən partiya sədri ölkəmizdə yeni siyasi konfiqurasiyanın yaranmasının əhəmiyyətini diqqətə çatdırıb və bu istiqamətdə Prezident İlham Əliyevin təşəbbüslərini yüksək dəyərləndirib. Siyasi partiyalar arasında bu birlik qorunmalıdır. O, siyasi münasibətlərin və dialoqun inkişafı ilə bağlı bir sıra təkliflər də irəli sürüb.

“Vətən müharibəsi: haqq və şərəf işi” mövzusunda çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc isə bildirib ki, Azərbaycanın son iki yüz ildə belə bir möhtəşəm Qələbə qazanmasının əsas səbəbi xalqın xilaskar lider ətrafında sıx birləşməsi olub. Onun sözlərinə görə, bu birliyin bundan sonra da qorunub saxlanmasına nail olmalıyıq: “Əgər biz ötən illərdə məğlubiyyətin acısını, çətinliyini yaşayırdıqsa, indi də qazandığımız Qələbəni qorumalı, onu möhkəmləndirməliyik. Çünki Qələbədən sonra müəyyən dairələr tərəfindən ölkəmizə qarşı şər-böhtan kampaniyasının aparıldığını görürük. Ona görə də biz milli birliyimizi daha da gücləndirməli, Prezidentimizin ətrafında bundan sonra da sıx birləşməliyik”.

“Dəyirmi masa”da “Müqəddəs savaş: cəsurluğun, şücaətin və vətənpərvərliyin təntənəsi” mövzusunda çıxış edən, iki dəfə “Azərbaycan Bayrağı” ordenli ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov bildirib ki, Azərbaycan Ordusunun müharibədə Qələbə qazanmasının əsas səbəblərindən biri yüksək vətənpərvərlik amilidir: “Ulu Öndər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra xalqımızın özünə inamı qayıtdı, o cümlədən orduda, gənclərimizdə yüksək döyüş ruhu formalaşmağa başladı. Məhz bunun nəticəsidir ki, Birinci Qarabağ müharibəsində torpaqlarımızın bir hissəsi azad edildi. Atəşkəs dövründə isə Ulu Öndər tərəfindən güclü ordu quruculuğuna başlanıldı. Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirərək Azərbaycanda güclü ordu yaratdı. Bu gün bizim Silahlı Qüvvələrimiz dünyanın ən güclü 50 ordusu sırasındadır. Ötən dövr ərzində çox yüksək vətənpərvər ruhlu gənc nəsil formalaşdı ki, bu amil Qələbəmizin təmin olunmasında öz sözünü dedi”.

Tədbirdə Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru, politoloq Eldar Namazov “Vətən müharibəsi və yeni tarixi reallıqlar” mövzusunda çıxış edərək bildirib ki, hazırda tarixi proseslər yaşayırıq. Onun sözlərinə görə, dövlətimiz və xalqımız çox böyük qələbə qazanıb: “Azərbaycanla Türkiyə regionda güc balansını dəyişib. Hamı bu reallıqla barışmalıdır. Gələcəkdə bölgədə baş verəcək proseslərdə Azərbaycan müstəsna rol oynayan ölkələrdən biri olacaq. Biz artıq bunun son günlərdə İranla yaşanan gərginlikdə də şahidi olduq. Artıq İran rus sülhməramlılarının nəzarətində olan ərazilərimizə yük daşınmasına son verdi. Bu barədə İran tərəfi müvafiq qərar qəbul edib. Hesab edirəm ki, artıq bütün türk dövlətlərinin birliyinin daha da güclənməsi prosesi gedir və bu baxımdan gələcəkdə yeni bir güc mərkəzinin yaranmasının şahidi olacağıq. Noyabr ayında İstanbulda keçiriləcək türkdilli ölkələrin zirvə sammitində vacib qərarların qəbul edilməsi gözlənilir”.

Politoloqun fikrincə, 44 günlük Vətən müharibəsindəki Qələbəmizə tam qiymətin verilməsi üçün zaman lazım olacaq: “Biz dövlətimizin, liderimizin ətrafında sıx birləşməliyik. Bizi qarşıda işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərini həyata keçirmək üçün böyük iqtisadi layihələr gözləyir. Biz artıq bölgədə yeni bir güc mərkəziyik. Gələcəkdə bu hadisələr dərsliklərə, kitablara qızıl hərflərlə yazılacaq”.

Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Məmmədov isə “Paralel baxış: Vətən müharibəsi və informasiya savaşı” mövzusunda çıxış edib. O bildirib ki, müasir dövrdə müharibələr hibrid müharibələr kimi səciyyələndirilir. Onun əsas komponentlərindən biri də informasiya müharibəsidir.

H.Məmmədov qeyd edib ki, 44 günlük müharibədə düşmənin və onun havadarlarının bizim informasiya məkanımıza müdaxilə cəhdlərini gördük: “Müharibə həm də informasiya məkanında gedirdi. 44 gün ərzində 35-dən çox xarici KİV-ə müsahibə verən Prezident İlham Əliyev informasiya müharibəsində də qələbəmizi təmin etdi. Amma bu gün də informasiya savaşı davam edir və bütün cəmiyyətimiz, o cümlədən siyasi partiyalar milli maraqlarımızın qorunması naminə bu prosesdə fəal iştirak etməlidir”.

“Dəyirmi masa”da həmçinin Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev, Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı, Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa, Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev, Respublikaçı Alternativ Partiyasının sədri İlqar Məmmədov, Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə, Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Rəna Mirzəzadə və iqtisadçı Fuad İbrahimov çıxış edərək 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin əhəmiyyətini və bu Zəfərin əldə olunmasında milli birliyin və həmrəyliyin xüsusi rolunu vurğulayıblar. Çıxışlarda həmçinin siyasi münasibətlərin inkişafı ilə bağlı fikir və təkliflər səsləndirilib.

Sonda çıxış edən Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “dəyirmi masa”da faydalı müzakirələrin aparıldığını bildirib və səsləndirilən təkliflərin diqqət mərkəzində saxlanılacağını vurğulayıb. Birinci vitse-spiker qeyd edib ki, Vətən müharibəsində ölkəmizdə siyasi baxışlarından asılı olmayaraq siyasi partiyaların mütləq əksəriyyətinin vahid mövqedən çıxış etməsi birliyimizin əyani göstəricisi oldu. Ə.Hüseynli gələcəkdə də bu tipli tədbirlərin keçirilməsinin önəmini diqqətə çatdırıb.

Tədbirə yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu cür görüşlərin bundan sonra da keçiriləcəyini, ümummilli maraqlar ətrafında bütövlükdə cəmiyyətin, o cümlədən siyasi partiyaların gələcəkdə də həmrəylik nümayiş etdirəcəyinə əminliyini ifadə edib.

# YAP və AK Parti arasında növbəti videokonfrans olacaq

Oktyabrın 26-da Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında videokonfrans keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında “Vətən müharibəsi: “Prezident-Xalq-Ordu birliyinin möhtəşəm rəmzi” mövzusunda keçirilən “dəyirmi masa”da bildirib.

Tahir Budaqov deyib ki, videokonfransın müzakirə mövzusu Vətən müharibəsində əldə edilən Qələbə və bölgədə yaranan yeni reallıqlardır. O, “dəyirmi masa”nın iştirakçısı olan siyasi partiya rəhbərlərini həmin tədbirə qatılmağa dəvət edib.

Vətən müharibəsində qazanılan Qələbədən sonra Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq etmək istəyən ölkələrin sayının artdığını qeyd edən YAP Sədrinin müavini deyib: “Artıq YAP Gənclər Birliyinin nümayəndələri Qazaxıstanda səfərdə olublar. Ukrayna və Özbəkistanın siyasi partiyalarından da əməkdaşlıq təklifləri var. Çin Kommunist Partiyası da diplomatik kanallar vasitəsilə bizimlə videokonfrans formatında görüşmək istəyir. Bu görüşün mövzusu ilə bağlı müzakirələr aparılacaq”.

Tahir Budaqov vurğulayıb ki, türk dövlətlərinin siyasi partiyaları ilə ikitərəfli əlaqələrin formalaşması istiqamətində də mühüm addımlar atılacaq.

# Xarici İşlər Nazirliyi Ermənistana qarşı beynəlxalq səviyyədə hüquqi məsuliyyət tədbirləri ilə bağlı vəziyyətə dair məlumat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistana qarşı beynəlxalq səviyyədə hüquqi məsuliyyət tədbirlərinin həyata keçirilməsi ilə bağlı cari vəziyyətə dair məlumat yayıb.

AZƏRTAC Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinə istinadla məlumatı təqdim edir:

“Bilirsiniz ki, Vətən müharibəsindən sonra Azərbaycan Respublikası 30 ilə yaxın müddət ərzində öz suveren ərazilərinin Ermənistanın qanunsuz hərbi işğalından irəli gələn müxtəlif beynəlxalq hüquq pozuntuları ilə bağlı beynəlxalq məhkəmələrə müraciət edib.

Əvvəlcədən qeyd etmək vacibdir ki, bu faktlara bir beynəlxalq məhkəmədə deyil, bir neçə beynəlxalq məhkəmədə baxılır. Çünki bu faktlar bir beynəlxalq konvensiyanın deyil, bir neçə beynəlxalq konvensiyanın pozulmasını ehtiva edir və hər bir konvensiya üzrə xüsusi şikayətetmə proseduru mövcuddur. Hər bir məhkəmə yalnız konkret bir konvensiya çərçivəsində hüquq pozuntularına qiymət verməyə səlahiyyətlidir.

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsi

Belə ki, cari ilin yanvarında Azərbaycan Ermənistana qarşı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə dövlətlərarası şikayət vermişdir. Bu şikayətdə Azərbaycan vətəndaşlarının İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il Konvensiyasında nəzərdə tutulmuş hüquqlarının Ermənistan tərəfindən davamlı şəkildə pozulduğunu sübut edən faktlar təsbit olunub. Şikayətdə həm Birinci Qarabağ müharibəsindən başlayan və davam edən, hərbi işğal dövründə başlayan və davam edən, eyni zamanda Vətən müharibəsi zamanı törədilmiş hüquq pozuntuları əksini tapır. Qeyd edilməlidir ki, bu hüquq pozuntularının əksəriyyəti, məsələn, mülki əhalinin qəsdən hədəfə alınması beynəlxalq cinayət hesab olunur.

Eyni zamanda Ermənistan da Avropa Məhkəməsində Azərbaycana qarşı bəzi əsassız iddialarla çıxış edib və bu iddialar yalnız Vətən müharibəsi dövrünə aiddir.

## Beynəlxalq Ədalət Məhkəməsi

Cari ilin sentyabrında Azərbaycan Respublikası BMT-nin 1965-ci il tarixli “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” beynəlxalq konvensiya əsasında Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı uzun müddət ərzində etnik təmizləmə siyasətinin aparılması faktları ilə bağlı Haaqa şəhərində yerləşən BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə də müraciət edib. Bu məhkəmədə də Ermənistan Azərbaycana qarşı əsassız iddialar irəli sürüb.

Prosedura əsasən, məhkəmə prosesinin ilk mərhələsində hər tərəf məhkəmədən iddianın təminetmə tədbiri kimi müəyyən təxirəsalınmaz məsələlərlə bağlı müvəqqəti xarakterli qərarların qəbul edilməsini xahiş edə bilər və həm Azərbaycan, həm də Ermənistan məhkəməyə bu barədə sentyabr ayında vəsatətlər vermişdir.

Cari il oktyabrın 14-19-da keçirilən dinləmələr iddiaların mahiyyəti ilə deyil, yalnız bu konkret vəsatətlərin baxılması ilə bağlı olmuşdur.

Azərbaycan tərəfi bu mərhələdə əsasən 3 təcili məsələ üzrə hüquq pozuntularının bu günədək Ermənistan tərəfindən davam edildiyi barədə faktları məhkəməyə təqdim etmiş və məhkəmənin təcili müdaxiləsini xahiş etmişdir:

- Ermənistan tərəfindən bu Konvensiyanın tələbləri kobud surətdə pozularaq işğaldan azad edilmiş ərazilərimizdə mövcud olan minalara dair tam, müfəssəl və dəqiq məlumatların, o cümlədən mina xəritələrinin Azərbaycana verilməməsi (və ya qəsdən natamam məlumatların verilməsini) və bununla da məcburi köçkünlərin həmin ərazilərə geri qayıtmasının məqsədli şəkildə qarşısının alınması, bunun da mahiyyət etibarilə etnik təmizləmənin davamı olduğuna görə məhkəmənin müdaxilə etməsi tərəfimizdən xahiş edilmişdir. Bilirsiniz ki, hərbi işğala son qoyulmasına baxmayaraq, ötən ilin noyabr ayından başlayaraq bu günədək bu minaların partlaması nəticəsində 160-dan çox soydaşımız həlak olub və ya ciddi xəsarət alıb, onlardan 65-i mülki şəxsdir;

- Vətən müharibəsi zamanı işğalçı erməni ordusu tərəfindən beynəlxalq humanitar hüququn pozulması, o cümlədən mülki əhalini hədəfə alması, hərbi əsirlərə işgəncələrin verilməsi və digər cinayətlərlə bağlı təqsirkar şəxslərə qarşı heç bir məsuliyyət tədbirlərinin görülməməsi, cinayətlərin törədilməsini sübut edən dəlillərin toplanmaması və ya hətta məhv edilməsi kimi halların qarşısının alınması üçün məhkəmənin müdaxilə etməsi tərəfimizdən xahiş edilmişdir;

- Ermənistanda revanşist yönümlü, hərbiləşdirilmiş qruplar Azərbaycana və azərbaycanlılara qarşı zorakı xarakterli çağırışlar edərək azərbaycanlıları etnik zəmində hədəfə alır. Belə cəhdlər bu gün də sosial şəbəkə və mətbuatda davamlı şəkildə həyata keçirilir. Ermənistan dövlət olaraq bunun nəinki qarşısını almır, hətta onları birbaşa və dolayısı şəkildə dəstəkləyir və bununla da 1965-ci il Konvensiyasının tələblərini pozur.

Qeyd edilməlidir ki, Ermənistan tərəfindən bu mərhələdə Azərbaycana qarşı irəli sürülən vəsatət əsasən Azərbaycanda saxlanılan, erməni əsilli şəxslərin qeyd-şərtsiz azadlığa buraxılmasıdır. Bu tələb onunla əsaslandırılır ki, o şəxslər erməni əsilli olduğu üçün həbsdə saxlanılır. Məsələ ilə bağlı tərəfimizdən bu şəxslər tərəfindən Azərbaycanın suveren ərazisində hərbi və digər cinayətlərin törədilməsini sübut edən dəlillər məhkəməyə təqdim edilmiş, Azərbaycanın öz cinayət və cinayət prosessual qanunvericiliyi əsasında bu şəxslərin məsuliyyətə cəlb etməyə hüququnun olduğu, onların etnik erməni olduqlarına deyil, törədilmiş konkret cinayətlərə görə məsuliyyətə cəlb edildiyini sübut edən faktlar təqdim edilmişdir. Digər vəsatətlərdə isə bu şəxslərin hüquqlarının təmin edilməsi, erməni xalqına qarşı nifrət nitqinin qarşısının alınması (bu kontekstdə Hərbi Qənimətlər Parkının dərhal bağlanması), Azərbaycan ərazisində yerləşən bəzi dini və mədəni abidələrin (hansıları ki, Ermənistan tərəfi erməni abidələri hesab edir) dağıdılmasının qarşısının alınması və sair bu kimi məsələlər qaldırılmışdır. Hər bir məsələ üzrə Azərbaycan tərəfi və ölkəmizi təmsil edən peşəkar vəkillər öz tutarlı cavablarını, dəlil və sübutlarını təqdim etmişdir.

Bu vəsatətlərlə bağlı məhkəmə qərarı, adətən, bir neçə həftə ərzində qəbul edilir. Bundan sonra məsələ mahiyyət mərhələsinə keçəcək və növbəti bir neçə il ərzində tərəflərin irəli sürdüyü iddiaların mahiyyətinə baxılacaq və müvafiq qərarlar qəbul ediləcəkdir.

Azərbaycanın Ermənistana qarşı hüquqi məsuliyyət tədbirləri bununla kifayətlənmir. Azərbaycan tərəfi Ermənistana bir sıra digər konvensiyalar üzrə dövlətlərarası şikayətləri irəli sürməyi planlaşdırır.

Bilirsiniz ki, Azərbaycanın mövqeyi hər zaman beynəlxalq hüquqa əsaslanır. Azərbaycanın əraziləri hərbi işğala, vətəndaşları etnik təmizlənməyə məruz qalmış ölkədir. Azərbaycan haqlı tərəfdir və tərəfimizdən bu işlərin sistemli şəkildə davam etdirilməsi təmin ediləcək”.

# Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının təşkilatçılığı ilə “Nizami Gəncəvinin müasirliyi” mövzusunda videokonfrans

Oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə “Nizami Gəncəvinin müasirliyi” mövzusunda videokonfrans keçirilib.

Partiyanın Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, YAP Veteranlar Şurasının üzvlərinin, partiyanın rayon təşkilatlarının fəallarının iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, bugünkü konfrans Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlıdır. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2021-ci il ölkəmizdə “Nizami Gəncəvi ili” elan edilib. Sərəncamda da qeyd olunduğu kimi, Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan Ümummilli Lider Heydər Əliyev Nizami irsinə də daim xüsusi diqqət yetirib. Ulu Öndərin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunan “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açıb. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilib.

Milli Məclisin deputatı, AMEA-nın həqiqi üzvü, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, professor Nizami Cəfərov isə bildirib ki, əlbəttə, Nizami Gəncəvi Azərbaycanın varlığının simvollarından biridir: “Nizami Gəncəvinin 800 illik yubileyi keçirildikdən sonra dahi şair daha çox tanınmağa başlayıb və o vaxtdan da onun bir Azərbaycan şairi, mütəfəkkiri olması ilə bağlı akademik səviyyələrdə mülahizələr meydana çıxıb. Dünyanın ən böyük şairlərinin yeni dövrə qədər Nizami Gəncəvi yaradıcılığına müraciət etmələri onun ideyalarının böyüklüyünün təqdimatıdır. 2021-ci ilin Azərbaycanda “Nizami Gəncəvi ili” elan olunması Nizaminin dünya şöhrəti ilə yanaşı, həm də dövlətimizin Nizami Gəncəvi irsinə münasibətinin səciyyəvi cəhəti kimi də qeyd olunmalıdır. Ümummilli Lider Heydər Əliyevin Nizami yaradıcılığına, şəxsiyyətinə çox böyük dəyər verdiyini söyləyən Nizami Cəfərov dünya azərbaycanlılarının lideri, Prezident İlham Əliyevin də müasir dünyada Nizamini tanıtmağın çox müxtəlif yollarının, üsullarının kəşfi ilə fərqləndiyini söyləyib. Bu mənada qeyd edib ki, Azərbaycan Prezidentinin 2021-ci ili “Nizami Gəncəvi ili” elan etməsi çox dərin ictimai-siyasi məzmun daşıyır.

Çıxış edən Veteranlar Şurasının üzvü Tahir Məmmədovun sözlərinə görə, Azərbaycan xalqının görkəmli şairi və dahi mütəfəkkiri, böyük söz ustadı Nizami Gəncəvi təkcə Azərbaycan ədəbiyyatını deyil, bütün dünyanın söz xəzinəsini bədii olaraq zənginləşdirib. Şairin əsərlərində obrazı yaradılan, dolğun bədii boyalarla təsvir olunan kərpickəsənlər, daş yonanlar, böyük məqbərələri ərsəyə gətirən memarlar, nəqqaş və sazəndələr, xəttatlar bu gün obrazlı şəkildə qeyd etsək, Azərbaycanın işğaldan azad olunmuş kəndlərində, şəhərlərində qızğın quruculuq işləri ilə məşğuldurlar.

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının fəalı Ayna Əlixanova Nizami Gəncəvi yaradıcılığından, 2021-ci ilin “Nizami Gəncəvi ili” elan olunmasının əhəmiyyətindən bəhs edib. Bildirib ki, Nizami Gəncəvi mənəvi zənginliyi hər şeydən üstün tutub. O, özünü, ölməz, bənzərsiz yaradıcılığını ülvi hisslərin, humanizm, xeyirxahlıq, ədalət kimi nəcib keyfiyyətlərin tərənnümünə həsr edib. Mübaliğəsiz demək olar ki, Nizami Gəncəvi dünyanın ən böyük şairləri ilə bir sırada durur və onun əsərləri bizim üçün, eləcə də gələcək nəsillər üçün daim ilham mənbəyi olacaqdır.

Müzakirə şəklində davam edən videokonfransda partiya fəalları - Elnur Tağıyevin, Gülər Bayramın və Varis Rüstəmovun sualları cavablandırılıb.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

◆ Zəfərin izi ilə







# Şuşanın «Fərhad»ları

## Qədim Kirs dağı çapılaraq Zəfər qalasına yeni su kəmərləri çəkilir

*Əvvəli 1-ci səh.*

### Şuşa 24 saat dayanıqlı içməli su ilə təmin olunur

Qala qapısındakı nəzarət-buraxılış məntəqəsini keçən kimi qarşılaşdığımız ilk mənzərə Şuşaya çəkilmiş su xəttində aparılan bərpa işi idi.

Komendant saatının başlamasına az qalsa da, dağlardan Şuşaya su çəkənlərlə söhbətləşməyə yollandıq və qaynaq işlərinin görüldüyü böyük diametrli su xəttinin yanında tanış sima ilə rastlaşdıq. Məlum oldu ki, "Azərsu" ASC tərəfindən Şuşaya su xəttinin çəkilişinə Cəbrayılın Cocuq Mərcanlı kəndinin məşhur sakini Oqtay Həziyev rəhbərlik edir.

Bu həmin Oqtay Həziyevdir ki, 23 il ailəsi ilə birlikdə qorxmadan düşmənin nəzarəti altında olan Cocuq Mərcanlıda yaşayıb. Azərbaycan Ordusunun 2016-cı ildəki Aprel zəfərindən sonra bu təhlükə aradan qalxıb və bu kənd Böyük qayıdışın ilk ünvanı olub. Belə ki, Prezident İlham Əliyev bir neçə aya bu kəndi yenidən qurdu və Cocuq Mərcanlıya gələrkən Oqtay Həziyevin evində qonaq oldu. Oqtay Həziyevin qəhrəmanlığına ən yüksək qiymət də Prezident tərəfindən verildi. Dövlət başçısı onu Azərbaycanda ilk dəfə olaraq birinci dərəcəli "Əmək" ordeni ilə təltif etdi.

Bu il oktyabrın 4-də, yeni Cəbrayılın işğaldan azad edilməsinin birinci ildönümündə İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə bu hadisəni bir daha xatırladı: "Oqtay Həziyev o insanlardandır ki, heç nəyə baxmadan, heç kimdən qorxmadan təkbaşına öz ailəsi ilə Cocuq Mərcanlıda 20 ildən çox yaşayıb. Mən sonra xəbər tutdum. Cocuq Mərcanlıya gələndə o vaxt mən "Əmək" ordenini təzə təsis etmişdim və onu heç kimə vermirdim. Halbuki namizədlər var idi, dedim ki, yox, mən onu o kişiyə verəcəyəm. Mən birinci ordeni o kişiyə verdim və evində də təqdim etdim, qucaqladım, öpdüm. Doğrudan da, Azərbaycan Oqtay kimi insanların üstündə dayanır".

23 il Cocuq Mərcanlıda Azərbaycan Ordusunun əsgərlərinə təmənnasız yardımlar edən həmin Oqtay Həziyev bu gün təkcə Şuşanın deyil, işğaldan azad olunmuş ərazilər üzrə "Azərsu" ASC-nin qəza-bərpa xidmətinin rəisi kimi məsuliyyətli bir işin icraçısıdır. Artıq 11 aydır ki, Qarabağın əksər şəhər və rayonlarının içməli su təminatı, əlavə su ehtiyatlarının tapılması prosesinə rəhbərlik edir.

Onunla Cocuq Mərcanlıda bir neçə dəfə görüşmüşdük. Şuşadakı görüşümüz də, aldığımız məlumatlar da çox maraqlı oldu. Öyrəndik ki, düşmən şəhəri tərk edərkən magistral su kəmərini də sıradan çıxarıbmış. Yaranmış içməli su probleminin həlli məqsədilə ilkin olaraq Daşaltı kəndinin içməli su təchizatı bərpa edilib və Şuşa şəhərini müvəqqəti olaraq maşınlarla su ilə təmin etmək üçün Daşaltıda sudoldurucu məntəqə yaradılıb.

Bununla paralel olaraq Müdafiə Nazirliyinin müvafiq bölmələri ilə birgə təhlükəsizlik tədbirləri görülməklə diametri 325 mm olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin texniki vəziyyəti təftiş olunub.



Məlum olub ki, hərbi əməliyyatlar zamanı mərmi partlayışları nəticəsində şəhəri içməli su ilə təmin edən 9,4 km uzunluğunda polad borulardan ibarət magistral su kəməri üzərində 12 nöqtədə böyük qəzalar yaranıb. Qəzaların qısa müddətdə aradan qaldırılması üçün lazım olan texniki avadanlıq və material tələbatı müəyyən edilib, həmçinin "Azərsu" ASC tərəfindən əlavə mühəndis-mütəxəssis heyəti, qəza-bərpa briqadası Şuşa şəhərinə ezam edilib.

Qəza-bərpa işlərinə cəlb olunmuş texnikaların maneəsiz hərəkəti üçün kəmərin marşrutu boyu mümkün olan yerlərdə istismar yolu salınıb, texnikaların hərəkətinin mümkün olmadığı yerlərə isə mal-materiallar əllə daşınaraq təmir işlərinə başlanılıb. Mürəkkəb relyefə malik ərazidə, meşə və dağ şəraitində magistral su kəmərinin qəzalı hissələri təmir edilib və 25 noyabr 2020-ci il tarixində Şuşa şəhərinə suyun verilməsi təmin olunub.



Beləliklə, soyuq, şaxtalı qış aylarında, qarlı havada Şuşaya gedən su xətərinin bərpa prosesi reallaşıb və işlər uğurla başa çatıb.

Şuşaya iki mənbədən - Zarıslı və Kirs dağının ətəyindən içməli su gəlir. Şəhər 24 saat dayanıqlı içməli su ilə təmin olunur. Hazırda şəhərdaxili yeni şəbəkələr qurulur. Həmçinin ətrafdakı dağlarda yeni su mənbələri axtarılır. Hazırda Şuşa şəhərinin girişində 1940 metr hündürlükdəki su anbarından 530 mm diametrlik borularla Şuşaya yeni xətt çəkilir və demək olar ki, artıq hazırdır: "Digər proses Kirs dağında aparılır. 1400 metr hündürlükdəki ərazidə yeni mənbələr axtarılır. Şəhərin daxilində 6 ədəd qazanxana tikilib və onların hamısı su ilə təchiz edilib".

Havanın qaralmağa doğru getməsinə baxmayaraq qəza-bərpa briqadası dayanmadan işləyirdi. İki nəfər quyuda qaynaq işləri aparır, digərləri isə boruları kəsirdi. Onlarla da söhbətləşirik:

*- Komendant saatına az qalıb, yekunlaşdıra biləcəksiniz. Bir də axşamın soyuğunda belə sürətlə işləmək sizi yormur?*

*- Yox, nə yorulmaq. Lazım olsa, səhərə qədər də işləyərik. Komendant saatının son dəqiqələrinədək işimizin başındayıq. Burda tez-tez Şuşanı azad edən qəhrəmanlarla görüşürük, söhbətləşirik. Onlar günlərlə yorulmadan, yatmadan, istirahət etmədən, fasilə vermədən bu dağları, yoxuşları qalxıb Şuşanı azad ediblər. İndi onların işini biz davam etdiririk. Şuşanın susuzluğuna son qoyuruq. Elə biz də döyüşçü sayılırıq. Zarafatla bir-birimizə "Şuşanın "Fərhad"ları deyirik. Biz də dağları, qayaları çarpıb bura su gətiririk...*



Oqtay Həziyev deyir ki, yeni çəkilən xətlər gələcəkdə Şuşada yaşaması nəzərdə tutulan 20-25 minə yaxın əhalinin dayanıqlı su təminatını həyata keçirəcək. Bundan əlavə, şəhər daxilində 3 ədəd 1000 kubluq anbar inşa olunacaq.





Şuşa sakinlərinin dediklərinə görə, qış aylarında şəhərə gələn su xətləri donduğu üçün evlərə suyu vedrələrlə daşımaq məcburiyyətində qalırlarmış. Amma şəhərə çəkilən yeni su xətləri daha donmayacaq. Bunu Oqtay Həziyev belə izah edir: "Düzdür, əvvəllər belə hallar çox olub. Amma bu gün Şuşaya daha müasir formada, modern avadanlıqlarla su xətləri çəkilir. Özü də bu xətlər 1 metr 70 sm dərinlikdə olacaq. Yəni bu dərinlikdə olan xətlərin donması qeyri-mümkündür".

Oqtay Həziyevin sözlərinə görə, mənbələrdə, magistral kəmərlərdə və şəhərdaxili paylayıcı şəbəkələrdə yaranan problemlərin operativ həlli məqsədilə "Azərsu" ASC-nin mühəndis-texniki heyəti və qəza briqadası tərəfindən Şuşa şəhərində fasiləsiz xidmət təşkil edilib.

Su çəkmək müqəddəs və savab işdir. Bu müqəddəs şəhərdə bu müqəddəs işi görənlərin fəaliyyəti isə həqiqətən qəhrəmanlıqdır.

### Magistral kəmərlər və anbarlar tikilir, daxili su şəbəkəsi yenidən qurulur

Yeni layihələr barədə də məlumat verən Oqtay Həziyev bildirdi ki, Şuşa şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə layihənin birinci mərhələsi çərçivəsində magistral su kəməri və anbarların tikintisi, həmçinin şəhərdaxili şəbəkənin bir hissəsinin yenidən qurulması nəzərdə tutulur.

Hazırda 1980-ci illərdə çəkilmiş Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,3 kilometrlik hissəsinin polad borularla dəyişdirilməsi işləri davam etdirilir. Avqust ayında icrasına başlanılmış layihəyə uyğun olaraq magistral kəmər üzrə planlaşdırılan işlərin 50 faizi qısa müddətdə yerinə yetirilib. Hazırda magistral xəttin tikintisi mürəkkəb relyef şəraitində, texnikanın çətin hərəkət etdiyi ərazilərdə, eyni zamanda 2 nöqtədə paralel olaraq aparılır.

Qayalıq ərazidə əvvəlcə xüsusi texnikanın sərbəst hərəkəti üçün trass salınır ki, buradan həm də gələcəkdə istismar yolu kimi istifadə olunacaq. Kəmərin keçəcəyi ərazilərdə xüsusi texnikalardan istifadə olunmaqla qayalıqlar yarılaraq xəndəklər qazılır və tikinti normalarına uyğun olaraq qumla doldurularaq hazır vəziyyətə gətirilir. Sonra borular xəndəklərə yerləşdirilərək qaynaq edilir. Texniki tələblərə uyğun olaraq hər bir qaynaq tikişi yoxlanılır, korroziyadan qorumaq üçün izolyasiya olunur. Gələcəkdə ərazidə qazıntı aparılacağı təqdirdə kəmərin zədələnmə risklərini nəzərə alaraq bütün marşrut boyu xəbərdaredici lentlər çəkilir.

Bu mərhələ üzrə işlərin cari ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulur. Layihənin növbəti mərhələsində baş plana uyğun olaraq şəhərin içməli və tullantı su şəbəkələri tamamilə yenidən qurulacaq, tullantı suların optimal idarə edilməsi və təmizlənib zərərsizləşdirilməsi məqsədilə sutəmizləyici qurğu inşa ediləcək.

Bütün bunlar Şuşanın fasiləsiz su təminatının reallaşması üçün həyata keçirilir. Gördüklərimizə, eşitdiklərimizə əsasən deyə bilərik ki, tezliklə şəhərin su təchizatı mükəmməl şəkildə təmin olunacaq. Bu prosesi həyata keçirənlər isə Şuşanın qurucuları kimi tarixə yazılacaqlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan",***
***Bakı-Şuşa-Bakı***

# ZƏFƏR gündəliyi

## 22 oktyabr 2020-ci il

Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək strateji yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Onların təxliyəsi üçün nəqliyyat vasitəsinin çatışmazlığı və yolların bağlanması məlum olub.

Bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖



Səhər saatlarında Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulur.

Düşmən tərəfindən saat 07:00 radələrində Siyəzən rayonu istiqamətində 3 raket, saat 09:00 radələrində isə Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket buraxılır.

Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olur.

Düşmənin raket hücumu nəticəsində tələfat yoxdur.

Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçır.

Saat 09:15-dən başlayaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonu ərazisindəki mövqelərimizi reaktiv artilleriya sistemlərindən atəşə tutur.

❖ ❖ ❖


İlham Əliyev @azpresident · 3 мин.
Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!
821 3.490 12,1K

İlham Əliyev @azpresident · 3 мин.
Müzəffər Azərbaycan Ordusu Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
804 3.822 12,4K

İlham Əliyev @azpresident · 10 мин.
Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev rəsmi "Tviter" səhifəsində gün ərzində 3 paylaşım edir. İlk tvitdə dövlət başçısı yazır:

"Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Prezidentin növbəti müjdəli məlumatında qeyd edilir:

"Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Dövlət başçısnın 3-cü paylaşımında isə deyilir:

"Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!"

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva "Trend" İnformasiya Agentliyinə müsahibə verərək deyir ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar:

"Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu sadəcə hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!"

❖ ❖ ❖



Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi, general-mayor Hüseyn Mahmudov tərəfindən ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq keçirilir.

Brifinqdə qonaqlara Ermənistanın münaqişədə birbaşa iştirakı, Ermənistan ərazilərindən döyüş əməliyyatları zonasından aralıda yerləşən Qəbələ, Kürdəmir və Siyəzən rayonlarında yaşayan dinc əhalinin və mülki infrastrukturun raket zərbələrinə məruz qalması, eləcə də humanitar atəşkəs razılığına əməl etməyərək açıq şəkildə onu pozması haqqında ətraflı məlumat verilir.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Kəlbəcər və Laçın rayonlarında hərbi hissələrin qışa hazırlığı yoxlanılıb




Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi Kəlbəcər və Laçın rayonları ərazisində dislokasiya olunan hərbi hissələrin qışa hazırlığını yoxlayıb.






Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirə hərbi hissələrdə yataqxana və xidməti otaqların fasiləsiz istilik sistemi ilə təmin edildiyi, silah və texnikanın payız-qış mövsümünə keçidinin təşkil olunduğu məruzə edilib.

Hərbi qulluqçuların ərzaq və isti geyimlə təminatı normaya uyğun şəkildə icra edilib. Yüksək dağlıq və sərt iqlim şəraiti olan ərazilərdə dislokasiya olunan bölmələrə normadan əlavə təminat və təchizat vasitələri ayrılıb.

Qeyd olunub ki, silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yüksəkkeyfiyyətli yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqla təmin edilib. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin yanacaq-sürtkü materialları mövsümi tələblərə uyğun olaraq dəyişdirilərək mürəkkəb və soyuq iqlim şəraitində istismar olunması üçün hazır vəziyyətə gətirilib.

Sərt iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz rejimində fasiləsiz xidmət aparmaq üçün hərbi hissələrin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılması üçün planlı şəkildə bütün zəruri tədbirlərin həyata keçirildiyi barədə müdafiə nazirinə məlumat verilib. Məruzə olunub ki, şəxsi heyətin xidməti şəraitinin yaxşılaşdırılması məqsədilə hər növ mebel və inventarla təmin olunmuş yeni modul tipli konteynerlərdən ibarət yaşayış məntəqələrinin quraşdırılması işləri sürətlə davam etdirilir.

Bundan başqa, digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə Mühəndis Qoşunlarının bölmələri tərəfindən çətin relyefli ərazilərdə hərəkət yollarının inşası və bərpası istiqamətində görülən işlərlə bağlı ətraflı məlumat verilib.

Müdafiə naziri Azərbaycan Ordusunda şəxsi heyətin təzə və yüksəkkalorili qida ilə fasiləsiz təmin olunması, yaşayış məntəqələrinin inşa edilməsi üzrə görülən işlərin sürətləndirilməsi və hərbi qulluqçuların sosial-məişət şəraitinin daim yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verib.

# Milli Xalça Muzeyində "Kamil Əliyev: rəssam və dövr" adlı sərgi açılıb





Oktyabrın 21-də Azərbaycan Milli Xalça Muzeyində "Kamil Əliyev: rəssam və dövr" adlı sərgi açılıb.




AZƏRTAC xəbər verir ki, sərgi Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq, Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyinə həsr edilib.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova bildirib ki, dahi sənətkar bütün ömrünü xalça sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına həsr edib. Kamil Əliyevin misilsiz nailiyyəti - xalçanın səthində realistik, sanki canlı insan obrazını yaradan ən incə rəng, işıq-kölgə çalarları ilə işləmək bacarığı idi. Yaradıcılıq boyu Kamil Əliyev onlarca xalça - Azərbaycan və digər ölkələrin tanınmış siyasi və incəsənət xadimlərinin portretlər qalereyasını yaradıb. Klassik xalça irsindən bəhrələnərək rəssam çoxsaylı ornamental kompozisiyaların da müəllifidir. Sənətkar sarı və qızılı rənglərin çoxsaylı çalarlarını və onların ahəngini əsərlərinin böyük qismində məharətlə istifadə edib.

Azərbaycanın mədəniyyət naziri Anar Kərimov Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyini paytaxtın ən gözəl muzeylərindən birində keçirilməsindən məmnunluğunu ifadə edib. Bildirib ki, görkəmli rəssamın yaradıcılığı dövlət tərəfindən daim yüksək dəyərləndirilib. O, bir çox dövlət mükafatları ilə təltif olunub, sağlığında 80 illiyi, vəfatından sonra isə 90 illiyinin dövlət səviyyəsində qeyd olunması ilə əlaqədar dövlət başçıları tərəfindən sərəncamlar imzalanıb. "Çox sevindirici haldır ki, bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzaladı. Bu da sənətkarın bizə miras qoyduğu irsin müasir dövrdə incəsənətimiz üçün aktual olduğunu bir daha sübut edir", - deyə nazir vurğulayıb.

Bildirib ki, Kamil Əliyev uzun və çox məhsuldar yaradıcılıq həyatı boyunca siyasi və ictimai xadimlərin, klassik şair və mütəfəkkirlərin, tanınmış mədəniyyət nümayəndələrinin obrazlarını xalça üzərində parlaq şəkildə canlandırıb. Xalq rəssamı Kamil Əliyevin fərdi sərgiləri ölkəmizlə yanaşı, Paris, London, Tokio, Dehli, Ankara, İstanbul, Tehran, Moskva, Kiyev və digər şəhərlərin nüfuzlu muzey və qalereyalarında keçirilib. Onun müəllifi olduğu xalçalar dünyanın məşhur muzeyləri və şəxsi kolleksiyalarında saxlanılır.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov deyib: "Millətin tarixində qalan insanların dəyəri ondadır ki, o, millətin xatirəsindən silinmir. Onun yaradıcılığı dünyanın dörd tərəfində tanınır. Kamil Əliyev dedikdə Azərbaycan xalça sənəti zaman kontekstində təhlil edilməlidir. O, xalçaçılığın bir simvolu olaraq bu diqqəti özündə saxlayır. İrəvandan sürgün olunan Kamil Əliyev hələ o dövrün siyasi təlatümlərini yaşayıb. O, mübarizliyini xalça sənətində axtardı. Kamil Əliyev 1930-cu illərin ağır repressiyalarından keçmiş bir insan kimi daim böyük simaları müdafiə etmişdi".

R.Hüseynov vurğulayıb ki, mənfur ermənilərin Azərbaycan xalçalarını öz adlarına çıxarmaları cəhdlərinə qarşı Kamil Əliyev fəal mübarizə apararaq, milli xalçaçılıq mədəniyyətimizi fəal şəkildə dünyada təbliğ edirdi.

Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov bildirib ki, Kamil Əliyev hələ uşaqlıq illərindən xalça toxumağa başlayıb və bütün həyatını bu sənətə həsr edib. Kamil Əliyevlə bağlı xatirələrini bölüşən F.Xəlilov onun incə yumora malik, həqiqəti müdafiə edən insan olduğunu diqqətə çatdırıb.

Xalq rəssamı Eldar Mikayılzadə çıxışında Kamil Əliyevin çoxşaxəli istedada malik xalçaçı-rəssam olduğunu vurğulayıb. Qeyd edib ki, o, süfrələrin toxunuşundan tutmuş zərgərlik əşyalarının eskizlərinin hazırlanmasına qədər geniş fəaliyyətlə məşğul olurdu.

Xalçaçı Əlisəfa Nuriyeva Lətif Kərimov və Kamil Əliyev kimi insanların xatirəsinə göstərilən yüksək diqqət və ehtirama görə dövlət başçısına və Azərbaycan Milli Xalça Muzeyinə toxucular adından minnətdarlığını bildirib. Hər iki şəxsiyyətlərlə birgə çalışmış Ə.Musayeva xalçaçılıq sənətinin incəliklərini məhz onların sayəsində öyrəndiyini deyib.

Xalq rəssamı Kamil Əliyevin qızı Nərminə Əliyeva atasının dünyada tanınmasından qürur hissi duyduğunu vurğulayıb, onun xatirəsinə göstərilən diqqətə görə təşəkkürünü bildirib.

Sərgidə görkəmli sənətkar Kamil Əliyevin müəllifi olduğu Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasında qorunan 18 xalça nümayiş etdirilib. Bundan əlavə, Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından rəssamın yaradıcılığına aid 3 xalça, habelə sənətkarın ailə arxivindən üç xalça və 5 eskiz də ekspozisiyada yer alıb.

Mədəniyyət Nazirliyinin və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı ilə açılan sərgi noyabrın 21-dək davam edəcək.

# Müdafiə Nazirliyi Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yenilənmiş siyahısını dərc edib

Müdafiə Nazirliyi Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yenilənmiş siyahısını dərc edib.

AZƏRTAC nazirliyin saytına istinadla xəbər verir ki, siyahıda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından oktyabrın 21-dək dəfn edilən 2908 nəfərin, eləcə də itkin düşmüş hesab olunan 6 nəfərin fotoşəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat təqdim olunur.

Qeyd edək ki, itkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin ruhu qarşısında baş əyirik!

**Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı**

**https://mod.gov.az//images/pdf/6b064b1312428f62f842328a94b85f09.pdf**

# Hərbi Akademiyada beynəlxalq elmi-praktik konfrans keçirilir

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Silahlı Qüvvələrin Hərbi Akademiyasında "İkinci Qarabağ müharibəsi yeni nəsil müharibə kimi" mövzusunda "Zoom" platforması üzərindən onlayn beynəlxalq elmi-praktik konfrans başlayıb.




Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, konfrans Türkiyənin Milli Müdafiə Universiteti, Pakistanın Milli Müdafiə Universiteti, Bolqarıstanın Q.S.Rakovski Milli Müdafiə Universiteti, Ukraynanın İvan Çernyaxovski adına Milli Müdafiə Universiteti, Polşanın Varmia və Mazuri Universiteti, eləcə də Rumıniyanın I Karol Milli Müdafiə Universitetinin dəstəyi ilə keçirilir.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri İnstitutu, Azərbaycan Milli Aerokosmik Agentliyi, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Dövlət Sərhəd Xidməti Akademiyası və Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının nümayəndələri də iştirak edirlər.

Beynəlxalq elmi-praktik konfrans işini oktyabrın 22-də başa çatdıracaq.

# Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ilə "YAŞAT" Fondu arasında əməkdaşlıq sənədi imzalanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi ilə "YAŞAT" Fondu arasında əməkdaşlığa dair memorandum imzalanıb.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildirilib ki, əməkdaşlıq sənədini Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Anar Bayramov və "YAŞAT" Fondunun rəhbəri Elvin Hüseynov imzalayıblar.

Tədbirdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun möhtəşəm tarixi Zəfərlə başa vurduğu Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərimizlə bağlı həyata keçirilən genişmiqyaslı dəstək tədbirlərindən bəhs olunub. Bu tədbirlərin bir istiqamətinin də qazilərimizin reabilitasiya xidmətləri və vasitələri ilə təminatı olduğu vurğulanıb.

İmzalanan əməkdaşlıq sənədinin də Vətən müharibəsində yaralanmış qazilərin reabilitasiya xidmətləri və vasitələri ilə təmin edilməsi, ümumən, onların ehtiyaclarına uyğun digər tədbirlərin görülməsi sahəsində iki qurum tərəfindən birgə fəaliyyətin həyata keçirilməsini nəzərdə tutduğunu qeyd edilib.

Memoranduma əsasən, tərəflər Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, habelə müharibədə yaralanmış və əlilliyi müəyyən edilməmiş şəxslərin aidiyyəti üzrə tibb müəssisələrinə yönləndirilməsi və reabilitasiya xidmətləri ilə təmin olunması istiqamətində əməkdaşlıq edəcək.

Qarşılıqlı zəruri məlumatların ötürülməsi təmin ediləcək. "YAŞAT" Fondu tərəfindən agentliyə yönləndiriləcək Vətən müharibəsi iştirakçılarının reabilitasiya vasitələri ilə təminatı həyata keçiriləcək.

***"Azərbaycan"***

# "Bizim həyət" layihəsi çərçivəsində daha bir həyət abadlaşdırılıb



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Nəsimi rayonu, Hüseyn Seyidzadə küçəsi, 1 və 2a ünvanında yerləşən təxminən 1600 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və basketbol meydançaları və uşaq meydançaları salınıb. Yeni həyətin ərazisində 5 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq yeni liftlər, işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqlara əlavə olaraq 80 ağac və kol, habelə 1000 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Məhəllə sakinləri Rafiq Hüseynov və Arifə Əliyeva bildiriblər ki, əvvəllər həyətdə oturacaqlar olmayıb. İndi söhbətgahlar quraşdırılıb, uşaqlar üçün şərait yaradılıb. Sakinlərin sözlərinə görə, əvvəllər işıqlandırma olmadığından qaranlıqdan həyəti görmək mümkün deyildi. Bildirilib ki, işıq dirəkləri quraşdırılıb, bina rənglənib, bloklar və pilləkənlər təmir olunub. Sakinlər yaradılan şəraitə görə minnətdarlıqlarını ifadə edib, bu abadlığın qorunub saxlanılmasına çalışacaqlarını diqqətə çatdırıblar.



Qeyd edək ki, həmin layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.




# Məktublar: problemlər, rəylər, təkliflər...



## “Haqqınız ödənilib, yaxşı yol sizə!”

**Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribat Azərbaycanın öz torpaqlarının azad edilməsi uğrunda əks-əməliyyatlara başlamasına səbəb oldu. 44 gün davam edən və tariximizə Vətən müharibəsi kimi həkk olunan bu savaş Azərbaycan ictimaiyyətinin torpaqlarımızın azad olunması ilə bağlı gözləntilərini reallığa çevirdi.**

Cəbhənin elə bir istiqaməti olmadı ki, qoşunlarımız hücumda ləngisinlər. Elə bir cəbhə xətti olmadı ki, düşmənin müdafiə mövqelərinin yarılması mümkün olmasın. Noyabrın 10-da rəsmiləşən tariximizin şanlı zəfərini Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun şəxsi heyəti, əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz qazandılar. Hansı hərbi vasitələrdən istifadə etmələrindən asılı olmayaraq, bu qələbə sevincini xalqımıza hərbçilərimiz yaşatdılar. Onlar döyüş meydanlarında böyük rəşadət və şücaət, misilsiz qəhrəmanlıq göstərdilər. Eyni zamanda Vətən müharibəsi göstərdi ki, xalqımız onu ümdə arzularına qovuşduran rəhbərinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşib. Beləliklə, İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsini şərtləndirən əsas amillər oldu.

Dövlət-Ordu-Xalq birliyi savaşda qələbəmizin təmin edilməsində, itirilmiş torpaqlarımızın işğaldan azad olunmasında həlledici rol oynadı. Vətən müharibəsinin başlandığı ilk günlərdən xalqımız, ayrı-ayrı vətəndaşlarımız, xeyirxah insanlar ordumuza, zabit və əsgərlərimizə dəstəklərini nümayiş etdirməklə, onlardan maddi kömək və qayğılarını əsirgəmədilər. Belə xeyirxah insanlardan biri də Hacıqabul şəhər sakini hacı İltifat Bəşirovdur. Çalışdığı “Qədir Xum” iaşə müəssisəsinin müdiri olaraq Hacı İltifat Bəşirov Vətən müharibəsinin başlandığı ilk günlərdən etibarən ordumuzun əsgərlərinə, zabitlərinə maddi və mənəvi kömək göstərməyə başlayıb. Hacıqabul şəhər sakinləri onun xeyirxahlığından, xüsusən 44 günlük Vətən müharibəsi zamanı hərbçilərimizə, əsgər oğullarımıza etdiyi köməkliklər, xeyriyyəçilik əməlləri haqqında ağızdolusu danışır, onun bir nümunə olduğunu qeyd edirlər. Xalqımız üçün həyəcanlı və qürurverici olan Ali Baş Komandanımızın əmri və rəhbərliyi ilə aparılan Ordumuzun əks-hücum əməliyyatları, şiddətli döyüşlər zamanı Hacı İltifat Bəşirov işçilərinə tapşırıb ki, hərbi formada kimsə qapıdan içəri girsə, məbləğindən asılı olmayaraq - paltar, ayaqqabı, siqaret və s. nə istəsələr verin, özünüz də bildirin: “Haqqınız ödənilib, yaxşı yol sizə!” Çox sevindirici və həqiqətən örnək göstəriləcək bir haldır ki, bu cür insanlar var. Vətənin dar günündə bu cür səxavətli və xeyriyyəçi oğulların heç də az olmadığının şahidi olduq və buna yüzlərlə misal göstərmək olar. Atalar yaxşı deyiblər ki, dünya yaxşıların çiyinlərində fırlanır.



***Nazim ZEYNALOV,***
***“Hacıqabul” qəzetinin müxbiri***

## Bu problem həll olunacaqmı?

**Məktəblərin açılış gününün təyin olunması və sevincləri yerə-göyə sığmayan şagirdlərin əllərində gül-çiçək öz doğma ocaqlarına üz tutmalarını seyr etmək hər birimizi sehirli bir dünyaya aparır, o xoşbəxt anlara - uşaqlıq illərinə qaytarır. Lakin bir çox valideynin laqeydliyi, ağlasığmaz hərəkəti doymaq bilmədiyimiz bu hisslərin üstünə kölgə salır.**



Hörmətli redaksiya, Binəqədi qəsəbəsindəki 182 saylı məktəbin qarşısında və yaxın ətrafında dərs saatlarında əsl xaos hökm sürür. Belə ki, övladlarını məktəbə gətirən valideynlər öz şəxsi avtomobillərini qadağan olunmuş yerlərdə, ensiz yolun hər iki tərəfində saxlayır, bəzən də saatlarla orada “lövbər” salırlar. Bu da təbii ki, hərəkət zolağında sıxlıq yaradır, marşrut avtobuslarının mənzil başına vaxtında çatmasına əngəl törədir, sərnişinlərin haqlı narazılığına səbəb olur. Ən qəribəsi də budur ki, Bakı Nəqliyyat Agentliyinin nümayəndələri bu xoşagəlməz hala göz yumur, heç bir tədbir görmürlər.

Qeyd edim ki, problem indinin, dünənin məsələsi deyil. Artıq illərdir ki, davam edən bu anormal halın nə zaman aradan qaldırılacağı günü bütün qəsəbə sakinləri kimi, mən də həsrətlə gözləyirəm.

***İman MİRZƏZADƏ,***
***Bakı şəhəri, Binəqədi qəsəbə sakini***

## Dövlət mənə yenidən həyat verdi








**Azərbaycan xalqı xoşbəxtdir ki, onun ildən-ilə bütün sahələr üzrə inkişaf edən belə bir qüdrətli dövləti, dünya liderləri arasında nüfuzu ilə seçilən, söz sahibi olan Prezidenti - Qarabağda Zəfər yazan Müzəffər Ali Baş Komandanı var! Prezident İlham Əliyev həm də xalqmıza ona görə əzizdir ki, o, Ulu Öndər Heydər Əliyevin siyasi varisi olaraq ata vəsiyyətini yerinə yetirən oğuldur.**

Mən əslən şuşalıyam. Qarabağın zümrüd tacı olan Şüşamızın işğaldan azad edilməsi məni həm kövrəldib, həm də qürurumu artırıb. Gözdən I qrup əliləm, dövlətimizin diqqət və qayğıkeşliyi sayəsində uzun sürən xəstəlikdən xilas olduğum üçün “Zəfər yolu” ilə Şuşanı, tarixi ata-baba yurdumu ziyarət edəcəyimə (xatırladım ki, xeyli müddət idi ki, əlil arabası ilə hərəkət edirdim) inanırdım. Bu inamımın gerçəkləşəcəyi günə lap az qalıb.

Bildiyimiz kimi, dövlət öz vətəndaşlarının sosial problemlərinin həlli üçün bütün imkanlardan istifadə edir. Bu işdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki sanatoriya, pansionat və digər qurumların üzərinə daha çox məsuliyyət düşür. Son illər bu sahədə həyata keçirilən layihələr, ilk növbədə, sosial müdafiəyə ehtiyacı olanların sağlam həyata qayıdışında mühüm amilə çevrilib. Mən də son illər həmin təşkilatlarda gördüyüm münasibəti birbaşa dövlətin bütün kateqoriyalardan olan vətəndaşlarına diqqət və qayğıkeşliyi hesab edirəm.

Belə müəssisələrdən biri Naftalandakı “Möcüzəli” sanatoriyasıdır. Əlbəttə, mən Zərifə Əliyeva adına Göz Xəstəlikləri İnstitutunda və Respublika Diaqnostika Mərkəzində əməliyyat keçirməyimə dəstək olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qayğıkeşliyini qeyd etməyə bilmərəm. Özü də həmin diqqət və qayğıkeşlik bununla bitmədi. Məni əməliyyatdan sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki əlilliyi olan şəxslər üçün Şağan Müalicə Pansionatına göndərdilər. Burada qarşılaşdığım, sözün əsl mənasında, cənnət guşə haqqında isə xüsusi söz açmağa dəyər.

Vaxtilə pansionatdakı dözülməz vəziyyətdən bu gün əsər-əlamət yoxdur. Bu gün mərkəzdə yaradılan şəraitdən hər kəs məmnundur. Pansionatın müdiri Lalə Həsənova deyir ki, dövlətimizin iqtisadi qüdrəti ölkənin hərtərəfli inkişafı, o cümlədən əhalinin sosial müdafiəsinin gücləndirilməsi deməkdir. Belə müasir şəraitdə əlillərə qayğıkeşlik göstərməyi pansionatın tibbi personalı özünün peşə borcu sayır. Həkim Məlahət Cəfərova, fizioterapiya şöbəsinin əməkdaşlarından Zümrüd Rzayeva, Zeynəb Cəlilova, massajist Aysel Hüseynzadə, tibb bacılarından Gülnarə Abbasova, reabilitasiya idmanı üzrə mütəxəssis Arzu Məmmədova və digərləri mərkəzdə müalicə alan əlillərə xüsusi diqqətlə yanaşırlar.

Bütün bunlardan sonra mən də öz növbəmdə xalqımıza son illər bir-birinin ardınca xoş günlər yaşadan, sosial problemlərinin həllində mühüm tədbirlər həyata keçirən dövlət başçısına minnətdarlığımı bildirir və deyirəm: dövlət mənə yenidən həyat verdi, çünki artıq əlil arabasına ehtiyacım yoxdur. Bu isə həm də o deməkdir ki, doğma Şuşaya sözün birbaşa mənasında ayaq basmaq imkanım yaranıb.

***Aydın QƏDİMLİ,***
***əmək veteranı, I qrup gözdən əlil,***
***Bakı***

## Gəlin dərindən düşünək

**Son iki ildə “COVID-19”un bəşəriyyəti ölümlərlə sınağa çəkən, faciələrlə müşayət olunan problemlərinin həyatımızda ciddi dəyişikliklərə səbəb olduğu hər kəsə məlumdur.**

Bu reallıqlar içində elə məsələlər var ki, biz ona əvvəlki münasibətimizi dəyişməliyik. Mən hər zaman aktual olan narkomaniyaya qarşı mübarizəni nəzərdə tuturam. Gündəlik həyatımızda qarşılaşdığımız üçün ürək ağrıdan mənzərələr biz yaşlı nəsli çox rahatsız edir. Bəşəriyyətin “ağ ölüm” adlandırdığı bu bəla bir çox faciələrimizin gerçək mayasıdır. Artan boşanmalar, dağılan ailələr, fərqli məişət zorakılıqları, oğurluq, qətllər, intiharlar əksər hallarda narkomaniyanın fəsadlarıdır.

Hörmətli redaksiya, mən bir ağsaqqal kimi demək istəyirəm ki, biz narkomaniyaya qarşı mübarizəni yanlız polisin, hüquq-mühafizə orqanlarının öhdəsinə buraxmamalıyıq. Özümüz də bu mübarizədə fəal, gözüaçıq olmalıyıq. Lakin oluruqmu? Təəssüf ki, qonşunun,




dostun, tanışın narkomaniya ilə bağlı dərd-sərinə, ağrı-acısına çox zaman biganə qalırıq, laqeyidlik göstəririk. Yalnız bəla ailəmizin nizamını pozanda hay-həşir salır, hamını qınayır, günahkar axtarırıq. Amma öz suçumuzu görmürük. Heç bir gənc bir anın içində, qəflətən narkoman olmur. Bunun üçün bəzən aylar gərəkdir. Ona görə də formalaşmamış, bərkə-boşa düşüb bərkiməmiş yeniyetmələrin üzərində valideyn nəzarəti çox vacibdir. Ata-ana bilməlidir ki, onların övladları hara gedib-gəlir, kiminlə yoldaşlıq edir, boş vaxtlarında nə işlə məşğul olur.

Hər gün qarşılaşdığım bir mənzərəni qeyd etmək istəyirəm. Küçədə dəstə-dəstə uşaqları, daha doğrusu, yuxarı sinif şagirdlərini tez-tez görürəm. Diqqətimi çəkən isə odur ki, bu zaman hər 10 uşağın təxminən 7-8-i siqaret çəkir. Həm də nümayişkaranə, bunu bir üstünlük nümunəsi kimi göstərərək. Təbii ki, bu gün siqaret çəkən yeniyetmə sabahın narkomanıdır, deyə bilmərik. Amma siqaretin də ziyanlı vərdiş olduğunu bilirik axı.. Odur ki, ana evdə uşağının üst-başından, pal-paltarından siqaret iyini hiss etmirsə, atanı bu ziyanlı vərdişə qarşı tədbir görməyə sövq etmirsə, ailə gec-tez bunun altını çəkəcək.

Hörmətli redaksiya, sözüm cəmiyyətədir. Bir araya gəlib narkomaniyaya qarşı kəsərli mübarizə tədbirləri tapmalıyıq, bunun üçün dərindən düşünməliyik, övladlarımızı “ağ ölüm”ün pəncəsindən qurtarmaq üçün yollar axtarmalıyıq.

***Aydın SƏFƏROV,***
***Bərdə şəhər sakini***

## 18 yaşlı gəncin 3 il iş təcrübəsi ola bilərmi?!

**Yeniyetmə və gənclərimizin son illər rastlaşdığı bir problem - işə qəbulla bağlı yaradılan süni əngəllər bir çoxları kimi, məni də narahat edir. Belə ki, müxtəlif dövlət və özəl təşkilatlar gənclərin, işaxtaranların qarşısına lüzumsuz tələblər və şərtlər qoyurlar.**

Ölkəmizdə rəsmi dövlət dili Azərbaycan dili olduğu halda işə qəbul olunmaq istəyənlərdən bir neçə əcnəbi dili bilmələri və əmək fəaliyyətinə başlamamış gənclərdən isə üstəlik ən azı 3 illik iş təcrübəsi tələb edilir. Qəribədir, 17-18 yaşında orta məktəbi təzəcə bitirən gəncin 3 il iş təcrübəsi haradandır, yaxud rus və ingilis dillərində necə mükəmməl danışa bilər?!



Hörmətli redaksiya, bu anormal hal bir vətəndaş olaraq məni çox narahat edir. Çox istərdim ki, qeyd etdiyim məsələ qəzet səhifələrində yer alsın. Bəlkə bundan sonra müvafiq orqanların diqqəti bu məsələyə cəlb oluna.

*Hörmətlə, daimi oxucunuz*

***Səidə ZAMANOVA,***
***Bakı şəhəri***

## Gözümüz təhlükəli ağaclarda qalıb

**Hərdən, xüsusən də küləkli havalarda nəhəng bir ağacın özünün və ya bir hissəsinin təsadüfən qırılaraq yola, piyada zolağına, hər hansı bir tikilinin və ya avtomobilin üzərinə düşərək müəyyən fəsadlar törətdiyinin çoxlarımız şahidi olmuşuq.**





Bakının Nərimanov rayonu, Mirzəbala Məmmədzadə küçəsi, 10 ünvanında yerləşən dördmərtəbəli yaşayış binasının həyətində də belə təhlükəli ağaclar var. Burada ağacın biri neçə vaxtdır ki, “müvazinətini itirərək” binanın balkonuna, digəri isə damına söykənib. Bu ağacların törədəcəyi ziyandan sakinlər çox narahatdırlar. Yaxşı olar ki, Bakı Şəhər Yaşıllaşdırma İdarəsi hər hansı bir bədbəxt hadisə baş verməmiş sakinlərin bu narahatlığına son qoysun.

***Səbuhi HƏSƏNOV,***
***sakin***

## AZƏRBAYCAN-a cavab verirlər

### Eskalatorlar təmir ediləcək

**“Azərbaycan” qəzetinin 30 sentyabr 2021-ci il tarixli sayında Azadlıq prospekti, 189 ünvanında yerləşən yerüstü piyada keçidində eskalatorların işləməməsi barədə dərc edilmiş “Laqeydliyə nə vaxt son qoyulacaq” sərlövhəli oxucu məktubu ilə əlaqədar ünvanladığınız 4 oktyabr 2021-ci il tarixli 1004/07 nömrəli müraciətə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində aidiyyəti üzrə baxılmışdır.**

Bildiririk ki, sözügedən piyada keçidinin eskalatorlarında sıradan çıxmış ehtiyat hissələri Azərbaycan Respublikasında istehsal olunmadığından ölkə xaricindən sifariş olunmuşdur. Sifariş olunmuş ehtiyat hissələri gəldikdən sonra eskalatorlar təmir edilərək işlək vəziyyətə gətiriləcəkdir.

***Əvəz QOCAYEV,***
***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini***

### Məqsədyönlü tədbirlər həyata keçirilmişdir

**Sizin oxucu məktubunda işıqlandırılmış məsələnin həlli ilə bağlı məktubunuza Bakı Nəqliyyat Agentliyində aidiyyəti üzrə baxılmışdır.**

Qəzetinizin 12 sentyabr 2021-ci il tarixli sayında dərc edilmiş “Bakıda strateji yolayrıcının altı “avtovağzal”a çevrilib, dinən yoxdur” sərlövhəli yazıda toxunulmuş məsələnin həlli ilə əlaqədar agentliyin əməkdaşları tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, əməkdaşlar tərəfindən adıçəkilən yol sahəsində qanunvericilikdə nəzərdə tutulmuş qaydada inzibati tənbeh tədbirləri görülmüş və ərazi avtomobillərdən təmizlənmişdir. Ərazidə dayanaraq respublikanın müxtəlif bölgələrinə sərnişinlərin yığımı ilə məşğul olan sürücülərlə profilaktik xarakterli söhbət aparılmış, bu kimi hərəkətlərin yolverilməzliyi barədə xəbərdar edilmişlər.

Bildiririk ki, problemin həlli istiqamətində tədbirlərin görülməsi nəzarətə götürülmüşdür.

***Sehmur QULİYEV,***
***Bakı Nəqliyyat Agentliyinin şöbə müdiri***

### Ərazidə qaz xətlərinin çəkilməsi nəzərdə tutulur

**“Azəriqaz” İstehsalat Birliyinə ünvanladığınız 04.10.2021-ci il tarixli 1004/08 saylı məktubda qəzetinizin 30 sentyabr 2021-ci il tarixli nömrəsində dərc olunmuş “Belə getsə bu qışı da qazsız keçirəcəyik” başlıqlı yazı ilə bağlı müraciətinizə tərəfimizdən baxılıb.**

Bildiririk ki, Cəlilabad şəhərinin N.İmanquliyev küçəsində yerləşən yaşayış massivinin qazlaşdırılması ilə bağlı sosial şəbəkə vasitəsilə 2021-ci ilin sentyabr ayında “Azəriqaz” İB-yə vətəndaşların müraciəti daxil olub. Müraciətlə əlaqədar olaraq “Azəriqaz” İB-nin Lənkəran Regional Qaz İstismar İdarəsi tərəfindən qeyd olunan əraziyə baxış keçirilib, mümkün qaz təchizatı mənbəyi müəyyən olunub və planlaşdırılan paylayıcı qaz xətlərinin prinsipial sxemi tərtib edilib. Sxem əsasında layihə-smeta sənədlərinin hazırlanması “Azəriqaz” İB tərəfindən Layihə-Konstruktor Bürosuna sifariş verilib. Layihə-smeta sənədləri hazır olduqdan sonra müvafiq dövlət ekspertizalarından və razılaşmalarından keçiriləcək. Nəzərinizə çatdırırıq ki, qazlaşma proqramı “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində maliyyə imkanlarına uyğun olaraq mərhələli və növbəli şəkildə həyata keçirilir. Növbəti illərdə qeyd olunan ərazidə paylayıcı küçə qaz xətlərinin çəkilməsi də nəzərdə tutulur.

***Ruslan ƏLİYEV,***
***“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru***

### Problem artıq öz həllini tapıb

**“Azərbaycan” qəzetinin 12 sentyabr 2021-ci il tarixli sayında dərc edilmiş “Quru ağac yaşıllıq yox, təhlükədir” sərlövhəli oxucu məktubunda qaldırılmış problem artıq öz həllini tapıb.**

Məlumat üçün bildiririk ki, Sumqayıt şəhərində yaşıllaşdırma işləri əsas prioritet istiqamətlərdən birini təşkil edir. Son illərdə şəhər ərazisində yüz minlərlə ağac əkilib, geniş yaşıllıq zolaqları salınıb. Yeni salınan parklarla yanaşı, məhəllədaxili ərazilərdə də yaşıllaşdırma işlərinə xüsusi diqqət yetirilir. Bununla yanaşı, şəhər ərazisində mövcud olan quru ağacların müəyyənləşdirilərək götürülməsi üçün də davamlı olaraq tədbirlər həyata keçirilir. Müəyyən edilmiş quru ağacların budanması və ərazidən götürülməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət olunur və bu müraciət əsasında verilmiş rəylərə uyğun olaraq tədbirlər görülür.

“Azərbaycan” qəzetinin 12 sentyabr 2021-ci il tarixli sayında dərc edilmiş “Quru ağac yaşıllıq yox, təhlükədir” sərlövhəli oxucu məktubunda qeyd olunmuş 8-ci mikrorayon 9/25 saylı yaşayış binasının qarşısındakı quru ağacla bağlı problemin aradan qaldırılması üçün tədbirlər görülmüşdür. Qeyd edək ki, ayın əvvəlində hazırlanmış tədbirlər planında 8-ci mikrorayon 9/25 saylı yaşayış binasının qarşısındakı quru ağacın götürülməsi də öz əksini tapmışdır. Sumqayıt Şəhər Yaşıllaşdırma İdarəsi tərəfindən hazırlanmış tədbirlər planına uyğun olaraq qeyd olunan binanın qarşısında və yan tərəfindəki iki quru ağac artıq kəsilərək götürülmüşdür.

***Gündüz ƏLİYEV,***
***Sumqayıt Şəhər İcra Hakimiyyətinin şöbə müdiri***

# Min bir dərdin dərmanı bal



## Yenidən arıçılıq məhsullarının sərgi-satış yarmarkasında

Arının yalnız balı deyil, südü, vərəmumu, yığdığı çiçək tozu da min bir dərdin dərmanıdır. Ölən arıları belə suda qaynadıb alınan mayeni saçların güclənməsi üçün istifadə edirlər. Arının hətta qanadlarının xəfif uğultusu da insanın əsəblərini müalicə edir. Əbəs yerə demirlər ki, arıçıların əsəbləri həmişə sakit olur. Pətəyin içində yüzlərlə arının qanadlarından qopan xəfif səsi biz də çox dinləmişik...

Bunları düşünə-düşünə metronun "Gənclik" stansiyası yaxınlığında Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkil etdikləri arıçılıq məhsullarının 21-ci Respublika Sərgi-Satış Yarmarkasının pavilyonuna daxil oluruq. Hər piştaxtada qoyulan balın öz ətri, öz qoxusu var. Bu bənzərsiz yarmarkaya baldan başqa digər arıçılıq məhsulları da çıxarılıb. Əvvəllər arıçılarımız yalnız bala üstünlük verirdilərsə, indi hamı bilir ki, digər arıçılıq məhsullarından da gəlir götürmək mümkündür.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən yarmarkada satışa çıxarılacaq məhsullardan götürülən nümunələr əvvəlcədən laboratoriyada yoxlanılmış, yalnız keyfiyyət və qida təhlükəsizliyi standartlarına uyğun olanlarının satışına icazə verilmişdir. Keyfiyyətsiz məhsulların yarmarkaya çıxışının qarşısı alınmışdır. Belə ki, 10-15 il əvvəlki yarmarkalarda bəzən üzdəniraq arıçıların satışa saxta bal çıxarmasına da rast gəlmək olurdu. İldən-ilə nəzarət güclənir, keyfiyyətsiz malların istehlakçılara təklif edilməsinə yol verilmir.

Yarmarkada dünyada və ölkəmizdə mövcud olan koronavirus pandemiyası təşkilatçılar tərəfindən nəzərə alınmış, zəruri təhlükəsizlik tədbirləri görülmüşdür. Hər bir arıçıya Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyatdan keçərkən minimum 25 arı ailəsinə malik olması tələbi qoyulmuş, yalnız COVID-19 pasportuna və ya immun sertifikatına malik arıçılara tədbirə qatılmağa icazə verilmişdir. Builki yarmarkada hər iqtisadi rayondan maksimum 40 olmaqla ümumilikdə 250 arıçı iştirak edir.

Yarmarka ərazisi zonalara və sektorlara bölünmüş, bütün iştirakçıların yer bölgüsü püşkatma vasitəsilə müəyyən edilmişdir. Hər bir arıçı satışa maksimum 400 kiloqram bal və maksimum 30 ədəd arı şanı çıxarmağa icazə almışdır.

Yarmarka iştirakçılarından biri Zaqatala Rayon Arıçılar Assosiasiyasının rəhbəri Mövləddin Qurbanaliyevlə söhbət edirik. O danışır ki, bu peşə onlara babasından miras qalıb: "1969-cu ildə rayonumuzda arıçılıq sovxozu yaradıldı. Atam orada arıçı kimi çalışdı, sonra briqadir oldu. O vaxtdan indiyədək bu peşəyə mehrimizi salmışıq. Mən də 1985-ci ildə əsgərlikdən qayıtdıqdan sonra həmin təsərrüfatda arıçı kimi çalışdım. Torpaq islahatları aparılandan sonra özüm fermer təsərrüfatını yaratdım və arıçılıqla məşğul oldum. İndi 450 pətək arı saxlayıram. Bunların 150-si orqanik arıçılıqla bağlıdır. Biz artıq Boz Qafqaz arısının damazlıq təsərrüfatını yaratmışıq. Mən arıçılıq fəaliyyətimlə bağlı ABŞ-da, İngiltərədə, İsveçdə və digər ölkələrdə olmuşam, maraqla onların təcrübəsini öyrənmişəm. ABŞ-da, Çikaqoda bizim apardığımız balı yoxladılar və cavab verdilər ki, son beş ildə bu laboratoriyaya belə zəngin tərkibli bal təqdim edilməyib. İndi məqsədimiz Azərbaycanda İMİ sertifakatı olan arıçılıq təsərrüfatı yaratmaqdır".

Sərgi-satış yarmarkasında söhbət etdiyimiz arıçılar dövlətin qayğısından ürəkdolusu danışdılar, arıçılığın inkişafına diqqət yetirildiyini söylədilər. Yarmarkada tanış olduğum gənc arıçı Sımran Sənanoğlu Qubadan gəldiyini dedi:

- Bu il sərgidə iştirak edə bilmirəm. Atam, babam illər boyu arı saxlasalar da, mən bu işə yeni başlamışam. Dövlətimiz mənə keçən il 15 arı pətəyi verib. Bu il onların sayını artırmışam. Hər pətəyə görə də dövlət mənə 10 manat əlavə yardım edir. Babamın arılarının sayı-hesabı olmazdı, balı da bidonlarla alardılar. Amma indi arı saxlamaq üçün gərək bir az tərəkəmə kimi yaşayasan, arıları gəzdirəsən. Təbiət 50 il əvvəlki kimi deyil, torpaqlar özəlləşib, hamı özü üçün əkib-becərir. Arıçılar da diribaş olmalı, vəziyyətə uyğunlaşmalıdırlar. Bu il balım az olub, amma dediyim kimi, arılarımın sayını iki dəfə artırmışam, bir neçə ilə mütləq bu yarmarkada iştirak edəcəyəm.

***Bahadur İMANQULİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***







# "Qarabağ"dan əzmkar qələbə

Dünən Azərbaycanı avrokuboklarda təmsil edən yeganə komanda "Qarabağ" növbəti oyununu keçirib.

Ağdam təmsilçisi Konfrans Liqasının qrup mərhələsinin 3-cü turunda evdə Qazaxıstan klubu "Kayrat"la qarşılaşıb.

19-cu dəqiqədə penalti qolu ilə hesabda geri düşən ağdamlılar son dəqiqələrdə nəinki məğlubiyyətdən qaça bilib, hətta qələbə də qazanıblar. Əvvəlcə 79-cu dəqiqədə Ramil Şeydayev hesabı bərabərləşdirib. 91-ci dəqiqədə isə Abbas Hüseynov komandamıza 3 xalı qazandıran qolu vurub.

*Daha ətraflı qəzetin növbəti sayında oxuya bilərsiniz.*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti Bakı şəhər İdarəsinin inzibati binası üçün çöl və idarədaxili qapı lövhələrinin hazırlanmasını və xidmətin əməkdaşlarının maddi həvəsləndirilməsi ilə bağlı hədiyyələrin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 525 55 45 (daxili - 6029) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 04 noyabr 2021-ci il saat 17:00-dək Bakı şəhəri,Yasamal rayonu, M.Naxçıvani küçəsi 25A ünvanında qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 21.09.2021-ci il tarixli sayında dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan mebel avadanlıqları, habelə qapı-pəncərə sistemləri üçün ehtiyat hissələrinin satın alınması ilə bağlı kotirovka sorğusu Satınalmalar komissiyasının qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması üçün açıq tender elan edir

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) **etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 200 (iki yüz) manatdır.

İşirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 15 noyabr 2021-ci il saat 11:00-ə qədər, tender təklifi və bank təminatı sənədlərini isə 23 noyabr 2021-ci il saat 17:00-ə qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 24 noyabr 2021-ci il saat 11:00-da açılacaqdır.

İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin deputatı Nizami Səfərova və iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova anaları

**ƏSKİNAZ SƏFƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və komitənin üzvləri Milli Məclisin deputatı Nizami Səfərova anası

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hicran Hüseynova və həyat yoldaşı Rüfət Səfərəliyev Milli Məclisin deputatı Nizami Səfərova anası

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Nizami Səfərova anası

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova anası

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Nizami Səfərova anası

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə, Fikrət Əzizov, Hidayət Beşirov və Fuad Bəşirov Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova anası

**ƏSKİNAZ SƏFƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova anası

**ƏSKİNAZ SƏFƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət investisiyaları şöbəsinin müdiri Əli Hacıyevə anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Xətai Rayon Prokurorluğunun kollektivi Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Rəşid Rzayevə həyat yoldaşı

**GÜLNARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova anası

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov və şirkətin kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova və Milli Məclisin deputatı Nizami Səfərova anaları

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Nizami və Niyazi Səfərovlara anaları

**ƏSKİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Milli Məclisin deputatı Siyavuş Novruzova qardaşı

**MƏHƏMMƏDƏLİ NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət investisiyaları şöbəsinin müdiri Əli Hacıyevə anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Yusifbəyli və Partnyorları" vəkil bürosunun kollektivi iş yoldaşları Esmira Hüseynovaya həyat yoldaşı

**İLQAR HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5610
Sifariş 1986
Qiyməti 40 qəpik